**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ**
**ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**ЗИЯФАТ ЗИЯ КЫЗЫ ГАБИБОВА**

# ДИАЛОГ МЕЖДУ КУЛЬТУРАМИ И ЦИВИЛИЗАЦИЯМИ В КОНТЕКСТЕ РАЗВИТИЯ ЧЕЛОВЕЧЕСКОГО ПОТЕНЦИАЛА

**Специальность: 5909.01 – Государственное управление**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора политических наук**

**БАКУ-2017**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**
**YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**ZİYAFƏT ZİYA QIZI HƏBİBOVA**

# MƏDƏNİYYƏTLƏR VƏ SİVİLİZASİYALARARASI DİALOQ İNSAN POTENSİALININ İNKİŞAFI KONTEKSTİNDƏ

**İxtisas: 5909.01 - Dövlət idarəçiliyi**

**Siyasi elmlər üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün**
**təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2017**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi məsləhətçi:** | Fəlsəfə üzrə elmlər doktoru, professor<br>**Ə.Z.Abdullayev** |
| **Rəsmi opponentlər:** | Siyasi elmlər üzrə elmlər doktoru, professor<br>**H.B.Məmmədov** |
| | Fəlsəfə üzrə elmlər doktoru, professor<br>**R.R.Mirzəzadə** |
| | Siyasi elmlər üzrə elmlər doktoru<br>**S.A.Əliyeva** |
| **Aparıcı təşkilat:** | Bakı Slavyan Universitetinin "Azərbaycan tarixi və ictimai elmlər" kafedrası |

Dissertasiya işinin müdafiəsi "_28____" ___04_____ 2017-ci il tarixində saat ____da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində siyasi elmlər üzrə elmlər doktoru elmi dərəcəsi vermək üçün yaradılmış BD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1001, Azərbaycan Respublikası, Bakı şəh., Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" ________2017-ci il tarixində göndərilmişdir.

**BD 02.101 Dissertasiya Şurasının elmi katibi**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent S.İ.Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı**. Müasir dövrdə dialoq problemi xüsusi əhəmiyyət kəsb edir. Bu gün qloballaşmanın genişlənməsi ilə yanaşı ona zidd olan proseslər də güclənir. Qloballaşma prosesi dünya nizamının etik paradiqmalarının öyrənilməsini tələb edir, çünki bunsuz müasir sivilizasiyaların dialoqunu insan inkişafı kontekstində tam öyrənmək çətindir. Bu təbiidir, hər bir konkret sivilizasiya dövrün dünyagörüşü sistemi və insanın sivilizasiyada tutduğu yerin dərk edilməsi ilə bağlıdır. İnsan inkişafının mühüm parametrlərini bu iki amilin mahiyyətində axtarmaq müasir qlobal proseslərin xarakterini və onların mədəni dialoq prosesinə təsirini öyrənməyə imkan verir. Dinc yanaşı yaşamaq, mədəniyyətlərin dialoqu, sivilizasiya və mədəniyyətlərin qorunması bəşəriyyətin konsensus şəraitində yaşamasını tələb edir.

Qloballaşma prosesi lokal mədəniyyətlərin qarşılıqlı əlaqələrində baş verənləri aktuallaşdırır və onları inteqrasiya yolu ilə vahid istiqamətə yönəldir. XX-XXI əsrdə ziddiyyətlərin artdığı bir dövrdə bu, xüsusi əhəmiyyət kəsb edir.

Bu gün müxtəlif xalqların mədəniyyətlərinin milli, regional, eləcə də dünya mədəniyyəti kontekstində təhlil edilməsi zərurəti yaranmışdır. Sivilizasiyalararası dialoqa getdikcə artan tələbat istər Şərqdə, istərsə də Qərbdə müasir dövrün birmənalı dərk edilməməsi ilə əlaqədardır. Öz mənəvi mədəniyyət tarixini dərk etməsi və bəşər mədəniyyəti haqqında məlumatlı olması, milli mənlik şüurunun artması ayrı-ayrı xalqlara özünüdərketmə və özünütəsdiqetmədə, eləcə də digər xalqlara münasibətdə daha anlaşıqlı və tolerant olmağa kömək edə bilər.

Fəlsəfi biliklər dialoq probleminin genezisini və sosial əhəmiyyətini dərk etməyə imkan verir. XXI əsrdə mədəniyyətlərin qarşılıqlı təsiri ilə bağlı məsələlərin aktuallığı artmış, onlar həm miqyasına, həm də təzahürlərinə görə qlobal xarakter almışlar. Elmi ədəbiyyatda mədəniyyətlərin oxşarlığı və müxtəlifliyinin tədqiqinə marağın artması sivilizasiya şəraitində mədəniyyətlərin dialoqu probleminə yeni yanaşmaların meydana gəlməsini şərtləndirir.

Cəmiyyətin inkişafı ilə bağlı proseslər tolerantlıq və sosial tərəfdaşlıq ideyalarının, dialogizm konsepsiyasının tədqiq olunmasını, mədəniyyətdə "qütblük kodu"nun məhv edilməsini tələb edir. Bu isə sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun aktuallığını artırır. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi "Qloballaşma və inteqrasiya prosesləri heç də

həmişə optimizmin təsdiq olunması ilə müşayiət olunmur”[1], hərçənd “dünya inkişafının indiki mərhələsinin başlıca meylləri mədəni inteqrasiya və qloballaşmadır”[2].

Sivilizasiyalararası dialoq mədəniyyətin mövcudluq və inkişafı forması olub mədəniyyətlərin qarşılıqlı təsirinin mahiyyətinin dərindən dərk edilməsinə imkan verir. Qarşılıqlı təsir sosiomədəni kontekstdən asılı olaraq müəyyən şəraitdə həyata keçirilir. Kontekstin tarixi parametrləri mədəniyyətin problem sahəsini müəyyən edir və ondan dialoji qarşılıqlı əlaqələrdə istifadə olunması koqnitiv və sosiomədəni praktikaların imkanlarını genişləndirir. Kontekst insan fəaliyyətinin müxtəlif istiqamətlərini tənzimləyən normalar, dəyərlər, nümunələr sistemi kimi mədəniyyət sahəsinə aiddir. Bu norma və dəyərlər sistemi dialoqda mədəniyyət fenomeninin dərk edilməsi və qiymətləndirilməsinin əsası olmaqla yanaşı, həm də sosial praktikanın hər bir növündə iştirak edir.

Multikulturalizm probleminin aktuallaşmasını XX əsrin sonu XXI əsrin əvvəllində yaranmış ümumi böhranla əlaqədar cəmiyyətdə təzahür edən ziddiyyətlərlə, o cümlədən etnomilli ziddiyyətlərin kəskinləşməsi ilə izah etmək olar. Multikulturalizm həm tərixən, həm də müasir dövrdə çoxmillətli dövlətlərdə milli siyasətin ayrılmaz hissəsi kimi həmin dövlətlərin siyasi ideologiyası və siyasətində digər xalqlara qarşı münasibəti əks etdirir.

Mədəniyyətlərin dialoqu, “mən”lə “başqası” arasında əlaqə forması aktual hadisə kimi XX əsrin ortaları XXI əsrin əvvəllərində baş verən sosiomədəni proseslərin mühüm probleminə çevrilmişdir. Bu fenomenə sinxron yanaşma mədəniyyətlərarası əlaqələrdə dialoqdan səmərəli istifadə etmək imkanlarının cəmiyyətlərin fəaliyyətinin ümumi sisteminə daxil edilməsini nəzərdə tutur. Bu zaman cəmiyyətlərin tarixi-mədəni irsinin, mentalitetinin, praqmatik maraqlarının xüsusiyyətləri nəzərə alınmalı və onlar mədəniyyətlərin inkişafında varisliyin, mütərəqqi irəliləyişlərin dialektik vəhdətinin nəticəsi kimi qiymətləndirilməlidir.

Sivilizasiyaların dialoqu prosesinin əhəmiyyəti bundadır ki, onun gedişində mədəniyyətlər fərdlər vasitəsilə qovuşur, fərdlər isə bir-birlərinin qarşısında bu və ya digər mədəniyyət modusunda dururlar. Bu mənada

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, 46 cilddə, 29-cu cild, Bakı: Azərnəşr, 2007, s.196

[2] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, 2011, s.7.

hazırda sivilizasiyaların dialoqu probleminin araşdırılmasında mühüm məsələ identiklik və onun qorunması problemidir. Bu problemin öyrənilməsinin aktuallığı dünyada təzahür edən identiklik böhranı ilə bağlıdır. Tədqiqatçılar dünyanı bürümüş bu böhranı cəmiyyətin mənəvi mədəniyyətinin xüsusi durumu hesab edir və güclənməkdə olan vesternizasiyanın təsiri altında ənənəvi mənəvi-etik normaların və həyat tərzinin daxili transformasiyasının, modifikasiyasının baş verdiyini bildirirlər.[1]

Əvvəllər sivilizasiya fərqləri və sivilizasiyalararası ziddiyyətlər yalnız iqtisadi amillə deyil, daha çox sosial, dini, mədəni amillərlə bağlı idi. Halbuki hazırda qlobal şəraitin dəyişməsində iqtisadi amillərin rolu artmaqdadır.

XX əsrin sonu - XXI əsrin əvvəlində Şərq və Qərb sivilizasiyaları arasında qarşılıqlı anlaşmaya tələbatın yarandığı bir dövrdə problemin həlli yolunu tapmaq xüsusi əhəmiyyət kəsb edir. XX əsrin sonunda Şərq əsl dini intibah dövrünü yaşamış və cənubda dövlət və hökumətə dinin təsiri artmışdır. 50-ci illərin ortalarına kimi müstəmləkələrin hakim dairələri bəzən yerli dinlərə neytral münasibət bəsləsələr də, əsasən ayrı-seçkiliyə yol vermiş, xristianlığın yayılmasına çalışmışlar. Odur ki, yerli dinlər məişət səviyyəsində qorunub saxlanılmışdır. Siyasi müstəqilliyin əldə edilməsi ilə bu ölkələrdə hakimiyyət orqanları eyni dindən olan vətəndaşlardan formalaşmağa başlamışdır.

Şərq politoloji fikrində "fərdiyyətçi" Şimalın "kollektivçi" Cənuba qarşı qoyulması ilə yeni konsepsiyalar yaranmışdır. Yerli cəmiyyətləri Qərb modelinə və iqtisadiyyatına uyğunlaşdırmaq cəhdləri "Asiya dəyərləri" ideyasının yayılmasına səbəb olmuşdur. Əlverişli həyat şəraitinə malik Şərqi Asiya ölkələrində bu hal narazılıqla qarşılanmış, iqtisadi nailiyyətlərdən qürur hissi duyan ölkələr regionda fərdiyyətçi Qərb paradiqmasının (yüksək dərəcədə cinayətkarlıq, narkotiklərin yayılması, boşanma hallarının artması, cəmiyyətdə irqi gərginlik) yayılmasına etirazlarını bildirmişlər. Bu ölkələrdə hazırlanmış "Asiya dəyərləri" konsepsiyalarında optimal ailə təşkili modeli, güclü klan sistemi, intizam, yaşlılara hörmət, sosial konsensusun prioritet əhəmiyyəti, güclü dövlət kimi amillər əksini tapmışdır. "Asiya dəyərləri"nin tərəfdarları hesab edirlər ki,

---

[1] Вайнштейн Г. Европейская идентичность. Возникающая реальность или фантом., Гранин Ю. «Глобализация», или «вестернизация»? О нелинсюсти исторических форм объединения человечества // «Свободная мысль XXX», 2013, №1, с.51-64

bir sıra ənənəvi dəyərləri müdafiə etmək və vesternizasiya ilə tam uyğun gəlməyən modernləşmə planlarını əsaslandırmaq vacibdir.

Beləliklə, sivilizasiya fərqlərinin artması, dünyada qarşılıqlı asılılığın güclənməsi nəticəsində mədəniyyət və sivilizasiya sahəsində endogen proseslər spesifikliyi ilə seçilir.

Avropa texnologiyası, elmi, təhsili və kütləvi (amerikanlaşmış) mədəniyyətinin hücumu hazırda birsivilizasiyalı dünyanın yaranmasına gətirib çıxarmır, əksinə, bu proseslər Cənubda özünəməxsus özgələşmə reaksiyası yaradır. Bu nifrət müxtəlif formalarda (islam fundamentalizmi, Afrika zəncilərinin reaksiyası, hərbçi induizmi və s.) təzahür edir. Hətta Yaponiyada ənənəvi, dini, mədəni təsəvvürlər canlamağa başlamışdır.

Avropa dəyərlərinə reaksiya Islam cəmiyyətində daha çox təzahür edir. İslam dünyası müasir sivilizasiya baxımından əsl supergion sayılır. Müsəlman qövsü Afrikanın şimal-qərbindən Asiyanın cənub-şərqinə qədər uzanaraq Rusiyanın ərazisindən keçir. Sosial-iqtisadi planda burada böyük fərqlər mövcuddur. İslam dünyasında neft ixrac edən zəngin dövlətlərlə yanaşı, ağır şəraitdə yaşayan ölkələr də var. İslam dünyasının birliyi iqtisadi sahədə, daha çox siyasi, xüsusilə, mədəni dəyərlər sahəsində təzahür edir. Müsəlman cəmiyyəti Qərb strukturlarından fərqli olaraq fərdiyyətçiliyə deyil, kollektivçilik psixologiyasına üstünlük verir. Son zamanlar bir sıra Afrasiya ölkələrində baş verən hadisələr göstərir ki, yaxın gələcəkdə teokratik müsəlman dövlətlərinin sayı arta bilər. Belə dövlətlər öz daxili siyasətlərində ənənədən istifadə etsələr də, xarici siyasətlərində bəzən beynəlxalq normalara uyğun olmayan dəyərləri rəhbər tuturlar.

Dissertasiya mövzusunun aktuallığı məhz bu ziddiyyətlərlə bağlıdır. Qeyd etmək lazımdır ki, Azərbaycan da müxtəlif xalqlara, millətlərə və dinlərə mənsub olan insanların birgə yaşadığı sosiomədəni məkandır. O, dünyanın sivilizasiyasiya məkanında mədəniyyətlərin qovuşduğu ölkə kimi tanınır. Odur ki, Sivilizasiyalararası dialoqun Azərbaycan modelinə beynəlxalq diskussiyalarda xüsusi diqqət yetirilir.

Dissertasiya mövzusunun aktuallığı həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 may 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"ndan irəli gəlir. Digər tərəfdən, 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir.

Dünyada sabitliyi və təhlükəsizliyi necə təmin etməli? Yeni təhlükə və təhdidləri necə aradan qaldırmalı və çağırışlara necə reaksiya verməli? Hamının və hər kəsin inkişafı üçün hansı modeli seçməli? Bu suallara filosof və politoloqlar müxtəlif cavablar verirlər. Lakin bu günə kimi müasir sivilizasiyanı qoruyub saxlamaq üçün vahid fikir formalaşmayıb. Bununla belə müxtəlif ölkələrdə yeganə çıxış yolu kimi alternativi olmayan dialoqa üstünlük verilir. Fikrimizcə, dissertasiya mövzusunu aktuallaşdıran məqamlardan biri də məhz budur.

**Problemin işlənmə dərəcəsi**. Sivilizasiyalararası və mədəniyyətlərarası dialoq və insan inkişafı problemi fəlsəfi-politoloji aspektdə daim diqqəti cəlb etmişdir. Yunan sivilizasiyası və onun nümunələri fəlsəfi dialoqların meydana gəlməsinə səbəb olmuşdur[1].

Sivilizasiya və mədəniyyətlə bağlı fikirləri iki dövr üzrə nəzərdən keçirmək olar:

I.XVIII əsrin ikinci yarısı - XIX əsrin birinci yarısı: xətti mərhələ nəzəriyyəsinin və onun müxtəlif variantlarının yaranması dövrü (F.Volter, A.Ferqyuson, A.Tyuqo, M.Kondose, O.Kont, F.Turo, Q.Hegel və b.)

II.XIX əsrin ikinci yarısı - XXI əsrin əvvəlləri: müxtəlif mədəniyyət və svilizasiya konsepsiyalarının yarandığı dövr (N.Y.Danilevski, O.Şpenqler, A.Toynbi, S.Hantinqton, S.Hatəmi və b.)

Rus alimi N.Y.Danilevskinin "Rusiya və Avropa" əsərində mədəniyyət və sivilizasiya konsepsiyası öz əksini tapmışdır. O, sivilizasiyaların meydana gəlməsi, inkişafı və süqutunu şərh etmiş və göstərmişdir ki, hər bir mədəni-tarixi tip özü üçün sivilizasiya yaradır və özündən əvvəlki və ya müasir sivilizasiyaların təsirinə məruz qalır[2].

---

[1] Андреев Ю.В. От Евразии к Европе: Крит и Эгейский мир в эпоху бронзы и раннего железа. (III-нач. I тысячилетия до н.э.) СПБ: Дмитрий Буланин, 2002, 864 с, Гринбаум Н.С. Микеналогические этюды (1959-1997). СПб. Альянс, 2001, 242 с., Боннар А. Греческая цивилизация. М.: «Искусство», 1965, 438 с, Альянс цивилизаций. Первый форум Альянса цивилизаций. Мадрид, Испания, 15-16 января 2008.http:// www.un.org/rusian/dialogue/alliance., Табиб С. Притезания культуры. Равенство и разнообразия в глобальную эпоху. М., 2003, Библер В.С. От наукоучения – к логике культуре. Два философских введения в XXI век. М.: изд-во политической литературы, 1991, 123 с, Далемар Ф. Глобальная этика: прояодоление дихотомии «универсализм – партикультурализм» // «Вопросы философии, 2003, №3, с.13-29

[2] Данилевский Н.Я. Россия и Европа. М., «Книга», 1991, 574 с.

Alman alimi Şpenqler Danilevski kimi avropasentrizm ideyasını rədd etmiş, "dünya sivilizasiyaları" anlayışını inkar etmiş və Qərb mədəniyyətinin məhvinin yaxınlaşdığını bildirmişdir. Şpenqler sivilizasiyanı mədəniyyətin son mərhələsi, cəmiyyətin durğun vəziyyəti, elmi-texniki nailiyyətlərin təntənəsi və incəsənətin tənəzzülü kimi səciyyələndirmişdir[1].

A.Toynbinin sivilizasiya nəzəriyyəsi O.Şpenqlerin fikirlərinə əsaslanır. O, din və onun təşkil forması, ərazi əlamətinə görə 21 sivilizasiyanı fərqləndirmiş, sivilizasiyaların inkişafında yaradıcı şəxsiyyətlərin və azlığın rolunu vurğulamışdır. A.Toynbi "Çağırış və cavab qanunu" əsərində mədəniyyətlərin və sivilizasiyaların yaranması və inkişafı baxımından müxtəlif çağırışlardan bəhs etmiş, sivilizasiyaların dialoqunu tarixi bilik idealı kimi əsaslandırmışdır[2].

"Sivilizasiyaların toqquşması" nəzəriyyəsi 1993-cü ildə Harvard Universitetində "Amerikanın milli əlaqələri, təhlükəsizlik mühiti" adlı araşdırma layihəsi üçün S.Hantinqton tərəfindən irəli sürülmüşdür. Onun fikrincə, sivilizasiya insanların ən yüksək mədəni birliyi və mədəni identifikasiyanın ən geniş səviyyəsidir[3].

İranın sabiq prezidenti S.Hatəminin "Sivilizasiyaların dialoqu" konsepsiyası S.Hantinqtonun "Sivilizasiyaların toqquşması" nəzəriyyəsinə cavabdır. Hantinqtondan fərqli olaraq o, sivilizasiya fərqləri və mentallıqlarının dialoqa rəvac verdiyini, xalqların qarşılıqlı anlaşmasını stimullaşdırdığını qeyd etmiş və sivilizasiyaların dialoqunun həyata keçirilməsinin iki yolundan (sivilizasiyaların qarşılıqlı təsiri və sivilizasiya təmsilçilərinin vasitəsilə sivilizasiya və mədəniyyətlərin dialoqu) bəhs etmişdir[4].

A.Kolesnikov sivilizasiya müxtəlifliyinin aradan qaldırılmasının qeyri-mümkün olduğu bir dövrdə "sivilizasiyaların vəhdəti" konsepsiyasına tələbatın yarandığını qeyd etmişdir[5].

---

[1] Шпенглер О. Закат Европы. Т.1. Новосибирск: «Наука», 1993, 592 с.

[2] Тойнби А. Постижение истории. М.: «Прогресс», 1991, 736 с.

[3] Хантингтон С. Столкновение цивилизации. М.: АКТ, 2003, 603 с

[4] Хатами С.М. В человеке сосредаточены душа Востока и разум Запада. М., 2001; Хатами С.М. Ислам, диалог и гражданское общество. М.: РОСПЕП, 2001, 242 с.

[5] Колесников А.С. Философские науки: компаративистика в диалоге культур // «Философские науки», №11, 2004. с.84-102

Müasir elmi ədəbiyyatda sivilizasiya identikliyi problemi 3 aspektdən tədqiq edilir:

1.Sivilizasiyanın və sivilizasiyalararası xalqların taleyi ilə bağlı "əbədi" problemlər

2.Avratlantikanın qlobal liderliyi şəraitində köhnə sivilizasiyanın "dünya sivilizasiyası"nın periferik mədəni qrupları səviyyəsinə enməsi təhlükəsi

3.Latın Amerikasında dini, mədəni və siyasi proseslərin yaratdığı "qitə şüuru"nun təzahürləri

Ötən illər ərzində sivilizasiya identikliyinin öyrənilməsinə meyl artsa da, onun nəzəri və ideya bazası az dəyişmiş, əvvəlki dövrlərlə müqayisədə az təkmilləşmişdir. Belə ki, "üçüncü dünya"nın sivilizasiya nəzəriyyəçiləri Danilevskinin XIX əsrdə "Rusiya və Avropa" əsərində irəli sürülmüş mülahizələrə əsaslanırlar, lakin müasir sivilizasiya problemlərinin öyrənilməsi baxımından bu nəzəri baza kifayət etmir.

Dövrümüzün əsas tədqiqatlarında sivilizasiya identikliyi problemi konkret regionun sivilizasiya identkliyi tədqiq edilərkən öyrənilir. Hazırda tədqiqatçıların əksəriyyəti hesab edir ki, sivilizasiya identikliyi ilə bağlı transformasiyalar mədəniyyətlə sivilizasiya arasında sərhədlərin silinməsinə səbəb olur. Identiklik konfliktlərinin əsasları olan dəyər transformasiyalarının mahiyyətinin dərk edilməsində V.Habermasın "postənənəvi identiklik", E.Qiddesin "refleksiz modernləşmə", U.Bekinin "qlobal vətəndaş cəmiyyəti" və "ikinci modern" konsepsiyaları nəzəri əsas rolunu oynayır.

Bu günün dialoq mədəniyyətində sivilizasiya mənlik şüuru və sivilizasiya dəyərləri mühüm əhəmiyyət kəsb edir. Sivilizasiyalararası dialoqda mədəni konfliktlərin müzakirəsi və həlli yollarının axtarışı prosesi mədəniyyətin mənlik şüurunu üzə çıxarır.

Elmi ədəbiyyatda "Şərq-Qərb" problemi insan intellektinin, fəaliyyətinin əsasları və mexanizmlərinin aşkar edilməsi məsələsi kimi nəzərdən keçirilir.

Dialoq nəzəriyyəsinin işlənib hazırlanmasında M.Haydeqqer, K.Yaspers, Q.Marsel, M.Biblerin müəyyən rolu olmuşdur[1].

---

[1] Ясперс К. Смысл и назначение истории. М.: «Мысль», 527 с; Библер В.С. На гранях логики культуры. М.: Русское феноменологическое общество, 1997, с.243, Библер В.С. От наукоучения – к логике культуре. Два философских введения в XXI век. М.: изд-во политической литературы, 1991, 123 с. və b.

Rus alimi M.Baxtın dialoqun təbiətini və əhəmiyyətini müəyyənləşdirməyin fəlsəfi metodologiyasını hazırlamış və dialoji münasibət konsepsiyasını yaratmışdır[1].

A.A.Qarkuşa mədəniyyətlərin və sivilizasiyaların dialoqunda struktur dialoqa, Q.M.Andreyeva kəskin problemlərin həllinin dialoq vasitəsilə mümkünlüyünə, İ.A.Malkova dialoqun evristik potensialına, Bibler idrakın dialoji xarakterinə və dialoji mədəniyyətə diqqət yetirmişdir[2].

Tədqiqatçılar qlobal dialoq şəraitində insan potensialının inkişaf resurslarının rolundan, dialoqun gedişində insan potensialının açılmasından bəhs etmişlər. Qəbul edilmiş sivilizasiyalararası dialoq konsepsiyalarında humanizmin və onun etikasının qlobal xarakteri qeyd olunmuşdur.

Amerika alimi Pol Kurts humanizmdən dünya hərəkatı kimi bəhs etmiş və yeni humanizmi müasir dövrün bəşəri dünyagörüşü hesab etmişdir[3].

Tədqiqatçılar mədəniyyətlərarası və sivilizasiyalarası dioloqda multikulturalizmin prioritet mövqeyindən və mədəniyyətlərin “toqquşması” prosesində konfliktlərin həllində onun humanist rolundan bəhs edir və multikulturalizmi ideologiya kimi qəbul edirlər[4].

Müasir dünyada coğrafi sərhədlərin silinməsi, irqlərin, xalqların və mədəniyyətlərin bir-birinə qarışması nəticəsində özgələşmə nəinki azalmır, əksinə, daha da güclənir. Şovinizm, ksenofobiya, irqçilik “sivilizasiyalılığı”

---

[1] Бахтин М. Эстетика словесного творчества. М., «Искусство», 1979, 424 с.

[2] Гаркуша А.А. К вопросу о детальной структуре диалога, // Филологические науки», сентябрь, 2012, Андреева Г.М. К вопросу о кризисе идентичности в условиях социальных трансформаций. // «Психологические исследование», 2011, №6 (20), URL. http: //psystudy.ru , Малькова И.А. Философия диалога //Глобалистика: Энциклопедия. М.: 2003, с.1026; Библер В.С. От наукоучения – к логике культуре. Два философских введения в XXI век. М.: изд-во политической литературы, 1991, 123 с

[3] Куртц П. Неогуманизм: Декларация светских принципов и ценностей - личных, социальных и планетарных // «Здравый смысл», 2010, № 4 (57) ,с. 5-6, Куртц П. Неогуманизм планетарное мировоззрение современности // «Здравый смысл», 2012, №63, с.10

[4] Заславская Т.И. Человеческий потенциал в современном трансформационном процессе // «Общественные науки и современность», 2005, № 4; Иванов Н. Человеческий фактор и глобализация // Мировая экономика и международные экономические отношения. 2004, №. 9; Исаев В.Д. Человек в пространстве цивилизации и культуры. Луганск: Свилица, 2003, 188 с; Человеческий потенциал: опыт комплексного подхода (Коллективная монография под ред. И.Т.Фролова). М., 1999

ilə öyünən bir çox ölkələr üçün adi hala çevrilmişdir. XX əsrin sonu XXI əsrin əvvəlində dünyada vüsət almış miqrasiya prosesləri böyük dövlətlərin narahatlığına səbəb olmuşdur. Buna görə tədqiqatçılar miqrasiya, tolerantlıq, sivilizasiyaların dialoqu vasitəsilə müxtəlif mədəniyyətlərin daşıyıcıları olan insanların bir-birinə yaxınlaşdırılması probleminin həllinə, multikulturalizmin dövlət siyasəti səviyyəsində həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirirlər.

İbn Ərəbinin yaratdığı "Vəhdət əl-vücud" (varlığın vəhdəti və vahidliyi) təlimi sivilizasiyalararası dialoqun nəzəri əsaslarından biri kimi qiymətləndirilir.

Ümumvəhdət konsepsiyasının təhlili Azərbaycan tədqiqatçılarının böyük marağına səbəb olmuşdur. Fəlsəfə elmləri doktoru Z.Quluzadə varlığın qanunauyğunluqlarının dərk edilməsində ümumvəhdət konsepsiyasını zəruri hesab edir. Onun təklif etdiyi ümumvəhdət konsepsiyası rus fəlsəfəsində mövcud olan ümumvəhdət fəlsəfəsindən və müasir dövrdə inkişaf edən dini-pravoslav yönümlü yeni ümumvəhdət fəlsəfəsindən prinsipial şəkildə fərqlənir[1].

30-31 mart 2010-cu ildə AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun dəstəyi ilə "Ümumvəhdət fəlsəfəsi və müasir elm" adlı elmi-nəzəri seminar keçirilmişdir.

Ümumvəhdət fəlsəfəsi dünyanın dərk edilməsinə, xalqların və mədəniyyətlərin yaxınlaşmasına şərait yaradır. O, müxtəlif xalqların zəngin fəlsəfi irsinin dərindən öyrənilməsinin, bir çox müasir fəlsəfi təlimlərin əsas qanunauyğunluqları və formalaşmasının vacib şərtidir. Bu təlimin Kiçik Asiya, Şimali Hindistan və İranda çoxlu tərəfdarları olsa da, onu tənqid edənlər də olmuşdur. Ümumvəhdət fəlsəfəsi dünya sivilizasiyalarının mahiyyətini əks etdirən ideyadır.

Azərbaycan siyasi fikri cəmiyyətdə milli birliyin və milli özünüdərkin, mənəvi immunitetin təmin edilməsinə xidmət edir. Bu missiya digər xalqlar və millətlərlə ünsiyyət və anlaşma, mədəni-mənəvi dəyərlərin nəsildən-nəslə ötürülməsi sayəsində inkişaf edir. Bu gün "dövlətin elm siyasəti milli ideologiya və dövlətçilik tarixi, mədəniyyət və fəlsəfə, politologiya və sosiologiya, mədəniyyətşünaslıq və hüquq sahələrinin

---

[1] Кулизаде З. Закономерности развития Восточной философии XIII-XVI вв (регион Ислама) и проблема Запад –Восток. Б.: «Елм», 1993, 283 с.; Кулузаде З.А. О философской концепции всеединства в свете современной науки // «Проблемы восточной философии», 2010, №1, с.7-10

verdiyi təklif, konsepsiya və proqramlarla sıx bağlıdır. Bu ideyanı rəhbər tutan Azərbaycan alimləri də sivilizasiyaların dialoqu və insan inkişafı probleminə öz töhfələrini verirlər.

Azərbaycan alimlərindən R.Mehdiyev, U. Ələkbərov, S.Xəlilov, Z.Quluzadə, İ.Məmmədzadə, R.Aslanova və başqaları mövzu ilə bağlı problemlərin müxtəlif aspektlərinə, qloballaşmanın milli mədəniyyətlərə təsirinə, mədəni qloballaşmanın mahiyyətinə, mədəniyyətlərarası münasibətlərə, mədəniyyətlərin dialoquna, multikulturalizm, yeni humanizm, insan potensialının inkişafı kimi məsələlərə diqqət yetirmişlər[1].

Ramiz Mehdiyevin tədqiqatında kreativ millət ideyasının insan potensialı kontekstintində təhlili xüsusilə təqdirəlayiqdir. Onun qeyd etdiyi kimi, hələ keçən əsrin 90-cı illərində Heydər Əliyevin etdiyi seçim ilə müasir Azərbaycanın siyasi, iqtisadi və sosial-mədəni sahələrdə inkişaf istiqamətləri müəyyənləşmişdir. Bir daha təsdiq olunmuşdur ki, güclü, qüdrətli dövlət qurmaq, zamanın axarından geri qalmamaq üçün siyasi və iqtisadi transformasiya, yeni intellektual nəslin formalaşması, innovasiyalar, cəmiyyətin səfərbər edilməsi zəruridir. Buna görə də hansı sosial-iqtisadi modeli yaratmaq istəməyimiz, insan potensialından istifadə ilə bağlı planlarımız və bunun nəticəsi kimi yaxın 30-40 il ərzində çata biləcəyimiz zirvələr xüsusi əhəmiyyət kəsb edir. Bu yeni intellektual nəslin nümayəndəsi, müasir Azərbaycanın insan potensialının klasteri kimi postmodern dəyərləri formalaşdıracaqdır. Ona görə ki, XXI əsrdə postsənaye cəmiyyəti kontekstində modernləşmə ideyası zamanın çağırışına çevrilir.

Baş verən qlobal dəyişikliklər millətlərdən mütəşəkkil olmağı, nizamlılığı və mövcudluğunu qorumağı, dövlətin rəqabət qabiliyyətini təmin edəcək yeni sosial-iqtisadi forma və dəyərlər yaratmaq üçün səmərəli yollar axtarmağı tələb edir. Bu hədəflərin lokomotivi rolunda yeni

[1] Мехтиев Р. Десять лет изменившие Азербайджан. 2003-2013. М.: Гриф К, 2013, 248 с.; Ələkbərov U. İnsan inkişafının əsasları. B.:Aspoliqraf, 2016, 280 s.; Кулузаде З. Мультикультурализм: методология исследования; Мамедзаде И. Мультикультурализм как философская проблема и идеология. // Bakı Beynəlxalq Humanitar Forumun materialları (4-5 oktyabr 2012-ci il) Bakı: "Şərq-Qərb", 2013, 544 s; Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. B.: Elm, 2004; Xəlilov S., Şərq və Qərb. Ümumbəşəri ideala doğru. B.: Azərbaycan Universiteti, 2004, 624 s; Кулузаде З. Мультикультурализм: методология исследования

dəyişikliklərə müvafiq olaraq formalaşan millət özü, onun intellektual səviyyəsi və yaradıcı qabiliyyəti çıxış edir.

Azərbaycanın milli strategiyası ölkənin ərazi bütövlüyünün bərpa edilməsinə, dövlət müstəqilliyinin və xalqın təhlükəsizliyinin möhkəmlənməsinə, müasir dövlət, müasir iqtisadiyyat və müasir cəmiyyət yaradılmasına yönəlmişdir. Bu halda yadda saxlanması zəruri olan ən başlıca məsələ budur: Azərbaycan ərazisinin nisbətən kiçik olmasını və əhalisinin sayının azlığını (qonşu Rusiya və İranla müqayisədə) keyfiyyət və texnologiya baxımından üstünlüyə nail olmaqla kompensasiya etməlidir. Bu strateji hədəfə nail olmaq Azərbaycan cəmiyyətinin hər bir üzvünün müasir inkişafın meyllərini və yollarını dərk etməyə çalışması, özünün tərəqqiyə nail olmaq istəməsi ilə mümkündür. Bunun üçün öyrənmək, təhsil səviyyəsini artırmaq, düşünmək, əmək vərdişlərini təkmilləşdirmək qabiliyyətini inkişaf etdirmək, sosial məsuliyyəti və nəticə etibarilə şəxsiyyətin, bütövlükdə ölkənin rəqabət qabiliyyətini gücləndirmək lazımdır. Millətin tərkibində kreativ və ağıllı insanların, yaradıcı enerjiyə malik olan intellektualların sayının artması Azərbaycanda müasir cəmiyyət qurulması üçün əsas stimul ola bilər. Millətin bu keyfiyyətləri milli ideyanın formalaşmasının əsas tərkib hissəsi kimi ölkənin innovativ modernləşməsinin əsasını təşkil etməlidir.[1]

Qlobal sosiomədəni inkişafın universal fenomeni olan multikulturalizm bir dövlət siyasəti kimi həm tarixən (Qədim Şərq, Qədim Yunanıstan, Orta Şərq, Avropa və s.), həm də müasir dövrdə müxtəlif etnomilli və regional mədəniyyətlərin sintezdə harmonik inkişafına, yaxud radikal müdaxilə, zorakı assimilyasiya yolu ilə tarix boyu bu mədəniyyətlərin və onların etnik daşıcıyılarının qismən, yaxud tam yox olmasına gətirib çıxarmışdır.

Bu gün birqütblü sistemə keçid və müxtəlif səviyyəli imperiya meyllərinin kəskinləşməsi Qərbdə və postsovet məkanında multikulturalizmin məzmununu dəyişərək, yeni dövrdə onun formalaşmasının qanunauyğunluqları və inkişafına təsir etmişdir.

2010-cu ildə Bakıda keçirilmiş forumda “Ərəb baharı” hadisələrindən və bu prosesdə Qərbin rolu mövzusuna bəhs edilmişdir. Forumda postsovet məkanında təzahür edən multikulturalizm humanizm və demokratiya nöqteyi-nəzərindən qiymətləndirilmişdir.

---

[1] Mehdiyev R. XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində.//”Azərbaycan” qəzeti, 28 iyun, 2012;

Multikulturalizm ictimai şüur formalarına, təsir etməklə ictimai rəyi formalaşdırır, ictimai-mədəni münasibətləri şərtləndirir.

Azərbaycanda multikulturalizm ideyalarının təbliği və öyrənilməsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rolu böyükdür. Mərkəzin əsas məqsədi azərbaycançılıq ideologiyasına uyğun olaraq tolerantlığın, mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etməkdir. Bu mərkəzin xarici dövlətlərlə əməkdaşlığı Azərbaycanın dünyada multikultural dövlət kimi tanınmasına imkan verir.

Əsası 1994-cü ildə qoyulmuş"Şərq-Qərb" tədqiqat mərkəzinin məqsədi Şərq-Qərb problemləri üzrə tədqiqatları davam və inkişaf etdirməkdir. Şərq-Qərb sivilizasiyalararası dialoqun təşkilində, görkəmli alimlərin iştirakı ilə tədbirlərin keçirilməsində və multikulturalizm ideyalarının təbliğində mərkəzin rolu böyükdür.

Beləliklə, problemin işlənmə dərəcəsinin təhlili əsasında belə qənaətə gəlmək olar ki, tədqiq olunan mövzunun müxtəlif aspektləri həm Azərbaycan, həm də xarici ölkələrin alimləri tərəfindən öyrənilmişdir. Lakin dissertasiya səviyyəsində baxılan problematika üzrə kompleks tədqiqatlar aparılmamışdır ki, bu da təqdim olunan dissertasiyanın bu sahədəki elmi ədəbiyyatda mövcud olan boşluğun aradan qaldırılmasında müəyyən addım kimi qiymətləndirilməsinə imkan verir.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyektini mədəniyyətlər və sivilizasiyalararası dialoq prosesi və bu prosesin insan inkişafı kontekstində tənzimlənməsinə yönələn dövlət siyasəti, predmetini isə mədəniyyətlərin və sivilizasiyaların zənginləşməsində dialoqun rolu, qlobal dialoq şəraitində insan potensialının inkişaf resurslarının müəyyənləşdirilməsi və dialoqun insan inkişafına təsiri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın başlıca məqsədi mədəniyyətlər və sivilizasiyalararası dialoqun mahiyyəti və xüsusiyyətlərinin tədqiq edilməsi və onun insan potensialının inkişafında rolunun müəyyənləşdirilməsi, bu kontekstdə müasir mədəniyyətlər və sivilizasiyalararası dialoq sistemində Azərbaycanın yerinin açılıb göstərilməsindən ibarətdir.

Dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

-dialoqun sosial mexanizm kimi mahiyyətini və onun tarixi formalarını nəzərdən keçirmək;

- mədəniyyətlərarası dialoqun intellektual potensialını və elmi-metodoloji əhəmiyyətini açıqlamaq;

-"Yeni humanizm" təlimini sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun nəzəri əsası kimi təhlil etmək, problemi insan inkişafı kontekstində araşdırmaq;

-qloballaşma şəraitində insan potensialının inkişafı məsələsini politoloji problem kimi tədqiq etmək;

-dialoqun evristik potensialını müəyyənləşdirmək;

-qlobal mədəniyyəti və sivilizasiyanın yeni səviyyəsini, sivilizasiyalararası sosiomədəni inkişafın strategiyasını dialoqun predmeti kimi nəzərdən keçirmək.

-sivilizasiyalararası və mədəniyyətlərarası dialoqda antiqlobalizm və sivilizasiya identikliyi probleminin yeri və rolunu təhlil etmək;

-qloballaşma şəraitində sivilizasiyalararası konfliktin xarakterini və səciyyəvi cəhətlərini müəyyənləşdirmək;

-konfliktlərin aradan qaldırılmasında mədəniyyətlərarası əməkdaşlığın və tərəfdaşlığın, dialoqun rolunu açıqlamaq;

-dünya nizamının mədəni dialoq səviyyəsindən asılılığını və "sivilizasiyaların dialoqu" konsepsiyasının nəzəri-praktik əhəmiyyətini müəyyənləşdirmək;

-çağırış və cavabları sivilizasiyanın inkişaf göstəriciləri kimi təhlil etmək;

- dialoq prosesində multikulturalizmi mühüm amil kimi nəzərdən keçirmək;

-Azərbaycanın mədəniyyətlər və sivilizasiyalararası dialoq sistemində yeri və rolunu müəyyənləşdirmək;

-Azərbaycanda insan potensialının inkişafını prioritet hədəf kimi nəzərdən keçirmək;

-Azərbaycanda multikulturalizmin insan inkişafı ilə dialektik əlaqəsini və müasir durumunu müəyyənləşdirmək;

-Prezident İlham Əliyevin "Multikulturalizm" konsepsiyasının elmi-metodoloji əhəmiyyətini və əsas müddəalarını açıb göstərmək.

**Tədqiqatın nəzəri və metodoloji əsasları**. Tədqiqatın nəzəri bazasını ilk növbədə Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış və nitqlərində problemlə bağlı irəli sürülmüş konseptual fikir və müddəalar, eləcə də bu sahədəki fundamental elmi əsərlər təşkil edir.

Dissertasiyanın metodoloji əsasını və ideya-nəzəri mənbəyini problemə aid elmi-konseptual yanaşmalar, elmi idrakın metod və

prinsipləri təşkil edir. Problemin kompleks tədqiqi üçün siyasi, elmi-nəzəri metodlardan (analiz və sintez, induksiya və deduksiya, ümumiləşdirmə, tarixi yanaşma, müqayisəli və sistemli təhlil və s.) geniş istifadə edilmişdir. Tədqiqat işi elmi idrakda tarixiliklə məntiqiliyin vəhdətinə, problemlə bağlı geniş elmi-nəzəri ədəbiyyata, yeni tarixi şəraitdən doğan nəticələrə və müddəalara əsaslanır.

Dissertasiya işində əsas nəzəri-metodoloji baza kimi fərman və sərəncamlardan, qəbul olunmuş qanunlardan istifadə edilmişdir. Tədqiqat işində dövri mətbuata və internet materiallarına da diqqət yetirilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Milli dəyərlərimizin mühafizəsi, ölkəmizin dünyada önəmli yer tutması və xalqımızın tarixinə, mədəni irsinə və bu gününə vurulan zərbələrin qarşısının alınması üçün politoloji tədqiqatlara diqqət artırılmalıdır. Tədqiqat işində əldə etdiyimiz yeni elmi nəticələr aşağıdakı müddəalarda öz əksini tapmışdır:

-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmi-metodoloji potensiala malik olan "Multikulturalizm" konsepsiyasının mahiyyəti və əhəmiyyəti açıqlanmışdır;

-Azərbaycanda ilk dəfə "yeni humanizm" nəzəriyyələrinin dialektikası, sivilizasiyalararası dialoqla insan inkişafı arasında əlaqə və təsir şərh edilmişdir;

-qloballaşma şəraitində mədəniyyətlərarası dialoq insan potensialının inkişafı kontekstində politoloji problem kimi tədqiq edilmişdir;

-mədəniyyətlər və sivilizasiyalararası dialoqun insan potensialına təsiri ilk dəfə tədqiq edilmişdir;

-çağırış və cavabların insan potensialının inkişafında rolu müəyyənləşdirilmişdir;

- Azərbaycan siyasi ədəbiyyatında qlobal mədəniyyət və sivilizasiyanın yeni səviyyəsi probleminin araşdırılmasına cəhd edilmişdir;

-mədəniyyətlərin və sivilizasiyaların sosiomədəni inkişaf strategiyası dialoqun predmeti kimi nəzərdən keçirilmişdir;

-dialoq zamanı insan potensialından səmərəli istifadə etməyin yolları müəyyənləşdirmişdir;

-sivilizasiyalararası və mədəniyyətlərarası dialoqda antiqlobalizm meylləri və sivilizasiya identikliyi dialektik vəhdətdə araşdırılmışdır;

-sivilizasiyalararası konfliktlərin həllində mədəni dialoqun rolu müəyyənləşdirilmişdir;

-mədəniyyətlərin və sivilizasiyaların dialoqunda multikulturalizmin rolu və yeri Azərbaycan reallıqları kontekstində təhlil edilmiş və multikulturalizm intellektual hərəkat kimi qiymətləndirilmişdir;

-sivilizasiyalararası dioloqun “Azərbaycan modeli”nin spesifikliyi müəyyənləşdirilmişdir.

**Dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat prosesində əldə etdiyimiz elmi nəticələr müəyyən ümumiləşdirilmələr aparmağa imkan vermişdir. Dissertasiya işi təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma metodları baxımından sonrakı tədqiqatlar üçün elmi-nəzəri mənbə ola bilər. Tədqiqat işi təkcə politoloqlar üçün deyil, həm də mədəniyyət və sivilizasiyaların müxtəlif problemlərini araşdıranlar üçün faydalı ola bilər. Dissertasiya işində əldə edilmiş nəzəri-praktiki nəticələrdən “Politologiya”, “Beynəlxalq münasibətlər”, “Xarici siyasət”, “Qlobal problemlərin siyasi aspektləri”, "Kulturologiya", "İdarəetmə mədəniyyəti" və s. fənlərin tədrisində istifadə etmək mümkündür. Dissertasiya işi sivilizasiyalararası dialoq zamanı qloballaşma prosesinin mənfi nəticələrinin aşkar edilməsi və onların aradan qaldırılması, insan potensialından səmərəli istifadə edilməsi üçün faydalı ola bilər.

**Dissertasiya işinin aprobasiyası**. Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur. İşin məzmunu və tədqiqatın nəticələri müəllifin iki monaqrafiyasında, eləcə də Azərbaycanda və xaricdə dərc olunmuş məqalələrində, beynəlxalq elmi konfranslardakı məruzələri və seminarlardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu**. Dissertasiya işi giriş, dörd fəsil (13 yarımfəsil), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılmış, problemin işlənmə dərəcəsi təhlil edilmiş, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları, elmi yeniliyi, eləcə də nəzəri-praktiki əhəmiyyəti müəyyən edilərək göstərilmişdir.

Dissertasiya işinin **"Dialoq mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı əlaqəsi və təsiri prosesi kimi"** adlanan ilk fəsli üç yarımfəsildən ibarətdir.

**"Dialoq sosial mexanizm kimi: mahiyyəti və əhəmiyyəti"** adlı birinci yarımfəsildə dialoqun yaranması və tarixi inkişafından, onun başqa mədəniyyətlərin aşkar edilməsi, dərk edilməsi və mənimsənilməsində, dövlət və etnik qruplar arasında gərginliyin aradan qaldırılmasında rolundan bəhs edilmişdir.

Bu yarımfəsildə dialoqun aparılmasına mane olan amillərlə yanaşı, dialoq mədəniyyətinin təşəkkülündə əhəmiyyət kəsb edən amillərə, eləcə də dünya nizamının mövcudluğunun cəmiyyətin mədəni dialoq səviyyəsindən asılılığına həqiqətin üzə çıxarılmasında dialoqun evristik potensialına diqqət yetirilmişdir. Burada dialoq mədəniyyəti aktuallaşdıran bir forma kimi nəzərdən keçirilmiş, mədəniyyətlərarası dialoq mədəni identikliyin konfliktlərinə yeganə müxalif fenomen kimi əsaslandırılmış və müasir dövrdə dialoqun rolunun artmasının səbəbləri, onun mədəni dəyər kimi cəmiyyətdə əhəmiyyəti açıqlanmışdır.

Tədqiqatçı həmçinin burada dialoqun humanist, evristik dəyərinin dərk edilməsinə imkan verən bəzi nəzəri və praktik yanaşmaları (dialoq birgəyaşayış üçün rasional və sivil yol təklif etməsini; qarşılıqlı iddialardan əl çəkmək, dialoqu təmkinli və cəsarətlə aparmağı bacarığını; hər iki tərəfin maraqlarına uyğun gələn mövqeyin axtarılmasına səy göstərilməsini; razılığa gəlmək sənəti və ümumi işə vətənpərvərlik sədaqətini tələb etdiyini; "dialoq başqasını məhv etmir, əksinə, başqasını başa düşməyə xidmət edir" ideyasını da xüsusi qeyd etmişdir.

**"Dialoq mədəniyyətdə özünüidentifikasiya kimi"** adlanan ikinci yarımfəsildə müasir mədəniyyətin özünüidentifikasiyası böhranının aradan qaldırılmasında dialoqun roluna diqqət yetirilmiş, mədəniyyətlərin dialoji münasibətlərinin prinsipləri və dialoq konsepsiyaları nəzərdən keçirilmişdir.

Dialoq mədəniyyətlərin qarşılıqlı münasibətlərinin inkişafı və dərinləşməsində yeni paradiqmadır. O yalnız subyektlərin müxtəlif

əlaqələrinin mənasını, strukturunu və nəticələrini müəyyən edən əlaqə forması deyil, həm də bu əlaqələrin dəyişməsi və ahəngdarlığının zəruri şərti və vasitəsidir. Bu paraqrafda mədəniyyətlərin dialoji münasibətlərinin prinsipləri (qarşılıqlı asılılıq, prosessuallıq, simmetriya) nəzərdən keçirilmişdir. Qarşılıqlı asılılıq prinsipi mədəniyyətlərin digər mədəniyyətlərlə ünsiyyətə istiqamətlənməsinin tələbidir və qarşılıqlı təsirin zəruriliyini əks etdirir. Prosessuallıq prinsipi mədəniyyətlərə bir-biriləri ilə ünsiyyətə girməyə, öz potensial və perspektivlərini açıqlamağa, qarşılıqlı təsirin dinamikasını nəzərə almağa, dialoq mövzusunu, onun üçün şərait və şərtləri, müzakirə etməyə imkan verir. Bu kontektdə mədəniyyətlərin dialoqu onların qarşılıqlı anlaşması, dəyişməsi və yaradıcılığı pörosesidir. Dialoq bu baxımdan vasitə deyil, məqsəddir.

Simmetriya prinsipi mədəniyyətlərin ümumi nöqtədə "görüşməsi" və qovuşmasını nəzərdə tutur. Belə bir nöqtə kimi insan problemi və ya mədəni spesifikliyin saxlanılması problemi çıxış edə bilər. Bu problemlərin həllində mədəniyyətlərdən hər biri öz potensial və vasitələrindən istifadə edir.

Qarşılıqlı əlaqənin yeni formalarının axtarışı və hazırlanması müxtəlif "mərkəzçiliyin" (avropasentrizm, şərqsentrizm və s.), assimmetriyanın, bunu yaradan streotiplərin aradan qaldırlması sayəsində mümkündür. Ümumilik müxtəlif regional, etnomədəni birliklərin əlaqəsindən formalaşır və o, dialoq vasitəsilə hazırlanır.

Elmi biliklərin dialoq mədəniyyətinin mahiyyətinin açılmasında rolunu nəzərə alaraq bu yarımfəsildə müxtəlif konsepsiyaların təhlilinə diqqət yetirilmişdir[1].

Birinci fəslin üçüncü yarımfəsli **"Mədəniyyət, sivilizasiya və insanın sosiomədəni inkişafının variativliyi"** adlanır. Bəşər tarixinin ilk dövrləri üçün maddi-mənəvi sinkretizm səciyyəvi idisə, sonralar mədəniyyətin yeni tarixi növü olan sivilizasiya mədəniyyətə xidmət mexanizmlərinə çevrilmişdir. XIX əsrdən etibarən "sivilizasiya" anlayışından bəşəriyyətin

---

[1] Библер В.С. На гранях логики культуры. М.: Русское феноменологическое общество, 1997, с.243; Библер В.С. От наукоучения – к логике культуре. Два философских введения в XXI век. М.: изд-во политической литературы, 1991, 123 с.; Хабермас Ю. Расколотый Запад. М.: «Весь мир», 2008, 192 с.; Хабермас Ю. Отношение к миру и рациональные аспекты действия в четырех социологических понятиях действия. //Социологические обозрения. 2008, ч.7, №1 və s.

inkişaf mərhələlərini səciyyələndirmək üçün metodoloji prinsip kimi istifadə olunmuşdur. XX əsrdə mədəniyyətlə sivilizasiyanın münasibəti, əlaqəsi, nisbəti disskusiya və dialoq predmeti olmuş, o, müstəqil problem kimi deyil, tarixi prosesin bir mərhələsi kimi nəzərdən keçirilmişdir. Tarixi şərait və onun şərh edilməsinə yanaşma dəyişdikcə, bu mövzu da aktuallıq kəsb etmişdir.

Bəzi tədqiqatçılar mədniyyətlə sivilizasiyanı eyniləşdirsələr də, son dövrlərin elmi ədəbiyyatında "sivilizasiyanın imkanlarının öyrənilməsi və dərk edilməsinə səy göstərilmiş, tədqiqatların əksəriyyətində mədəniyyətlə sivilizasiya arasında sıx əlaqədən bəhs olunmuşdur[1]. Odur ki, mədəniyyətlər və sivilizasiyalararası dialoq probleminə aydınlıq gətirmək üçün bu yarımfəsildə mədəniyyətlə sivilizasiya arasındakı fərqlərin müəyyənləşdirilməsinə diqqət yetirilmişdir.

Sivilizasya konsepsiyasının tərəfdarları hesab edirlər ki, mədəniyyətlərin inkişafı zorakılıqla dayandırılmayıbsa, onlar canlı orqanizmlər kimi yaranandan ölənədək inkişaf mərhələlələrini keçirirlər. Bəşər tarixinin yeni mərhələsi kimi meydana gələn sivilizasiya cəmiyyətin bütövlüyü üçün təhlükə yaradan ziddiyyətlərin qarşısını almaq və bəşəriyyətin sonrakı inkişafına imkan yaratmaq məqsədi güdür.

Müasir tədqiqatlarda "sivilizasiya" anlayışı ictimai həyatın maddi və mənəvi tərəflərini özündə ehtiva edən sosiomədəni sistem kimi təqdim edilir. Sivilizasiya sosiomədəni fenomendir. Əgər formasiya yanaşması formasiyanın təbii-tarixi proses, obyektiv və qanunauyğun hadisə kimi təhlilinə önəm verirsə, sivilizasiya yanaşması mövcud sivilizasiyanın mədəniyyətinin spesifikliyinin tədqiq edilməsini vacib sayır. Əgər formasiyanın sistemyaratma başlanğıcı istehsal münasibətləridirsə, sivilizasiyanın formalaşma başlanğıcı mədəniyyətdir.

Mədəniyyət tarixində "sivilizasiya" anlayışı iki səviyyədə (qlobal və lokal) nəzərdən keçirilmişdir. Lokal mədəniyyətlər, yaxud sivilizasiyalar XIX əsrin ikinci yarısından etibarən tarixi prosesin vəhdəti ideyasını, mədəniyyətə təkamül yanaşmasını qəbul etməyən tədqiqatçılar tərəfindən işlədilmişdir. "Lokal mədəniyyət" və "sivilizasiya" konsepsiyaları hələ qlobal problemlərin və təhlükələrin , yaxud "qlobal çağırışlar"ın mövcud olmadığı dövrdə yaranmışdır. Odur ki, sivilizasiya problemləri qlobal səviyyədə nəzərdən keçirilməli və həll edilməlidir.

---

[1] Данилевский Н.Я. Россия и Европа. М., «Книга», 1991, 574 с.

Belə bir metodoloji məsələ danılmazdır ki, bəşəriyyət özünü mədəniyyətlə sivilizasiyanın əlaqəsi kontekstində, mədəniyyət və sivilizasiyanın dinamikasında yerini müəyyənləşdirməklə dərk etməlidir. Hər bir mədəni-tarixi tip özü üçün sivilizasiya yaradır və o özündən əvvəlki, yaxud müasir sivilizasuyaların müəyyən təsirinə məruz qalır və spesifikliyə malikdir. Hər bir sivilizasiyanın varlığının əsas prinsipləri başqa xalqlar üçün əlçatan deyil, belə ki, yunanların sivilizasiyanı Şərq xalqları arasında, ingilislərin Avropa sivilizasiyasını Hindistanda yaymaq cəhdləri uğursuzluqla nəticlənmişdir. Lakin bu qanunauyğunluq sivilizasiyanın ayrı-ayrı elementlərinə və ya cəhətlərinə şamil edilmir. Bu cəhətlər bir sivilizasiyadan digərinə keçə bilər. Müstəmləkəçilik yolu ilə finikiyalılar öz sivilizasiyalarını Korfagenə, yunanlar Cənubi İtaliya və Siciliyaya, ingilislər Şimali Amerika və Avstraliyaya ötürmşülər.

Mədəni-tarixi tiplərin mövcudluğu artım, böyümə, çiçəklənmə və tənəzzül mərhələsindən asılıdır. Sivilizasiyalar bütün sahələrdə deyil, fəaliyyətin müəyyən sahəsində (yunan sivilizasiyası estetika, ərəblər din, Roma hüquq və siaysi təşkil sahəsində) yaradıcı olur. Müəyyən mədəni-tarixi tipli sivilizasiya o zaman tam çiçəklənir ki, onun "etnoqrafik materialı" rəngarəngdir və o, siyasi müstəqilliyə malikdir.

Yer üzündə çoxlu mədəniyyətlər mövcuddur, lakin onlar eyni cür inkişaf etmir. Mədəniyyətin dörd cəhətini xüsusi qeyd etmək olar:

-mədəniyyət canlı orqanizmdir;

-mədəniyyət cəmiyyətin sosial həyatı ilə eyniyyət təşkil edir;

-mədəniyyət mənəvi dəyərlərin məcmusudur;

-mədəniyyət mənəvi imkanların həyata keçirilməsidir.

Mədəniyyətin hər bir inkişaf fazası ən azı üç mərhələni əhatə edir:

-qeyri-sabitlik və xaos. Bu zaman qeyri-sabitlik xaotik vəziyyəti yaradan şərt kimi çıxış edir;

-"qeyri-sabitlik" (qeyri-dayanıqlıq). Belə halda qeyri-sabitlik mədəniyyətin yeni formalara və müxtəlif xarakterli dəyişikliklərə hazır olmasını əks etdirir;

-"qeyri-sabitlik-kreativlik". Bu zaman qeyri-sabitlik sosiomədəni yaradıcılıq üçün zəminə çevrilir.

Bəzi tədqiqatçılar[1] Qərb mədəniyyətinin məhvinin yaxınlaşması ideyasını irəli sürsələr də, Avropa mədəniyyəti yeni istiqamətlərdə özünün

---

[1] Шпенглер О. Закат Европы. Т.1. Новосибирск: «Наука», 1993, 592 с.

sonrakı inkişafını tapdı, onun nailiyyətləri dünya mədəniyyətinə əvəzsiz töhfə oldu.

Din və onun təşkili forması, ərazi əlamətlərinə görə A.Toynbi 21 sivilizasiyanı fərqləndirmişdir. Bu sivilizaisyalardan yeddisi canlı cəmiyyətlər, on dördü isə ölü cəmiyyətlərdir. Hazırda canlı sivilizasiyalardan əksərityyəti tənəzzülə və dağılmağa meyllidir. A.Toynbi hələ anadan olmamış 4 sivilizasiyanı (Skandinaviya bura aiddir) fərqləndirmiş və inkişafı dayandırılmış sivilizasiyalardan (polneyzalılar, eskimoslar, köçərilər, spartalılar) da bəhs etmişdir. Onun fikrincə, Misir sivilizasiyası Afrasiya ərazisində torpaqların qurumasına reaksiya kimi meydana gəlmişdir[1].

Cəmiyyətin inkişafı çağırışa (təbii mühitin və insan mühitinin çağırışları) cavab vermək qabiliyyətindən asılıdır. A.Toynbi beş çağırış tipindən (sərt iqlim, yeni torpaqlar, xarici insandan gələn gözlənilməz zərbələr, daim xarici təzyiq və zəiflətmə çağırışı) bəhs etmişdir. A.Toynbinin xidməti ondadır ki, öz konsepsiyasında mədəniyyətin inkişafının dialoji mahiyyətini açmışdır. Çağırış nə qədər güclüdürsə, stimul da bir o qədər güclü olur, lakin çağırış ifrat sərtliyi ilə seçilirsə, o səmərəli stimul ola bilmir. Sivilizasiya o zaman inkişaf edir ki, azlıq, yaxud bütün cəmiyyət çağırışa cavab verir və özü yeni çağırış yaradır[2].

Sivilizasiyalar öz üslübları ilə fərqlənirlər. Ellin sivilizasiyası üçün estetik üslub yaratmaq və formalaşdırmaq, Qərb sivilizasiyası üçün maşınlı istehsala keçid, kəşflərdən səmərli istifadə etmək, maddi və sosial sistemləri qurmaq kimi meyllər səciyyəvi olmuşdur. Sivilizasiyanın tənəzzülü və dağılması xarici qüvvələrin fəaliyyətinin nəticəsi deyildir. O, öz əlləri ilə məhv edilir və onun tənəzzülü özünün determinasiya gücünün itməsinin nəticəsidir. Sivilizasiyanın parçalanmasının mənbəyi hakim azlığın yaradıcı qüvvələrini və enerjisini, tarixi çağırışlara cavab vermək qabiliyyətini itirməsidir. Parçalanmaqda olan sivilizasiya yaradıcı çağırışı qəbul edərək xilaskar rolunu oynayır və öz yaradıcı imkanlarını itirmiş hakim qüvvələrin bacarmadığı çağırışa cavab verməkdə kömək edir.

K.Yaspersin belə bir fikri maraq doğurur ki, Şərqlə Qərbin qarşıdurması mütləq deyil. Ümumi mənəvi köklər kommunikasiya və

---

[1] Тойнби А. Постижение истории. М.: «Прогресс», 1991, 736 с.; Тойнби

[2] Тойнби А.Цивилизация перед судом истории. Мир и Запад. М.: «Ардис», 2007, 592 с.

dialoqların yaranmasına, konfliktlərin həllinə və vahid mədəni məkanın meydana gəlməsinə imkan verir[1].

Bu yarımfəsildə sivilizasiya və mədəniyyətlə bağlı fikirlər iki dövr üzrə (XVIII əsrin II yarısı – XIX əsrin I yarısı; XIX əsrin II yarısı – XXI əsrin əvvəlləri) nəzərdən keçirilmişdir.

**“Qlobal çağırışların insan potensialının inkişafında rolu”** adlı ikinci fəsil üç yarımfəsildən ibarətdir. **“İnsan potensialının inkişafı bəşəri problem kimi: insan inkişafı indeksi”** adlı birinci yarımfəsildə insan potensialının mahiyyəti, insan potensialının inkişaf konsepsiyası, insan inkişafı indeksi şərh edilmişdir.

Insan potensialı özü mədəniyyətin və sivilizasiyanın məhsuludur. Mədəniyyət insan fəaliyyətinin tarixən formalaşmış normativ dəyər - kompleks əsasıdır. Bu yarımfəsildə insan inkişafı üçün mühüm əhəmiyyət kəsb edən amillərə (iqtisadi artım, sosial-iqtisadi ədalət, yoxsulluğun aradan qaldırıması, gender bərabərliyi, müasir təhsil və səhiyyə sistemi, səmərəli idarəçilik, qərar qəbulu prosesində iştirak) diqqət yetirilmişdir. Insan resurslarından yeni informasiya məhsulları yaradan ali fəaliyyət subyekti, insanın potensial imkanlarını ifadə edən anlayış kimi bəhs olunmuşdur. XXI əsrin əvvəlində insan resurslarının üç komponentli strukturuna (fizioloji kapital, insan kapitalı, sosial kapital) diqqət yetirilmişdir.

Insan resursları nəzəriyyəsində insan üç komponentdən (əmək funksiyası, sosial münasibətlər sisteminə daxil olmaq, şəxsi peşə hazırlığı) ibarət olan ən qiymətli bərpa olunmayan resurs kimi təqdim edilir. Insan şəxsiyyət kimi fiziki (fizioloji), rasional (intellektual) və emosional (mənəvi) potensiala malikdir. Intellektual potensialın əsasını iqtisadi səmərəliliyin, rəqabət qabiliyyətliliyin radikal istiqamətdə dəyişilməsinə imkan yaradan bilik və mədəni səviyyə təşkil edir. İnsan resursları cəmiyyətin sərvətini özündə ehtiva edir.

“İnsan resursları” və “insan potensialı” insan kapitalının bazası kimi çıxış edir. “İnsan resursları” kateqoriyasına insana öz məqsədlərinə nail olmaq üçün faydalı olan əmək və qeyri-əmək bacarıq və vərdişləri daxildir. Bura həm də sosial, dini dünyagörüşü, mənəvi, əxlaqi keyfiyyətlər də aiddir.

Insan resurslarının inkişaf etdirilməsi probleminə müxtəlif ölkələrdə (ABŞ, Almaniya, Fransa, Belçika, Böyük Britaniya, Rusiya, Azərbaycan),

---

[1] Ясперс К. Смысл и назначение истории. М.: «Мысль», 527 с

regionlarda (Avropa, Asiya, Yaxın Şərq və Şimali Amerika) və mədəniyyətlərdə (Şərq, Qərb, dünyəvi və dini mədəniyyətlər) yanaşmalar fərqlidir.

Ümumiyyətlə, insan resurslarının idarə edilməsi tendensiyası qlobal xarakter daşıyır. Dünya praktikası göstərir ki, rəqabət şəraitində sosial və iqtisadi problemlərin həllində üstünlüyə insan resurslarının inkişafına investisiyaları artıran ölkələr nail olurlar. Insan resurslarının keyfiyyətinə olan tələblər zaman keçdikcə dəyişir. Dövlətlərin insan resurslarının keyfiyyətinin inteqral göstərici olan insan inkişafı indeksi üç amilə (orta ömür, təhsil və ümummilli məhsul) və ölkələrin dörd inkişaf səviyyəsini görə qruplaşdırılır.

Ikinci fəslin ikinci yarımfəsli **"Mədəniyyət və sivilizasiyanın yeni səviyyəsi insan inkişafı kontekstində"** adlanır. Hər bir yeni dövr sivilizasiya dəyərlərinə uyğun yeni insanı formalaşdırır. Həyat və onun formaları yenidən dərk edilir, azadlıq və insan yaradıcılığı yeni məna kəsb edir. Insan həmişə həm mədəniyyətdə, həm də sivilizasiyada sosial varlıqdır. Lakin hər iki məkanda sosiallıq tipi müxtəlifdir. Sivilizasiyada sosiallıq imperativ mövqeyə malikdir və "eqo"nun saxlanması iradənin nəticəsidir. Sivilizasiyanın əsasında insanın həyati tələbatları durur və onlar fəal həyat tərzi üçün sövqedici motivdir. İnsanın qurub-yaratmaq qabiliyyəti sivilizasiyanı və mədəniyyətləri inkişaf etdirir və qoruyub saxlayır. Sivilizasiya və mədəniyyətlərin mövcudluğu insanın iradəsi və intellektinə əsaslandığı üçün hazırda sivilizasiya identikliyinin axtarışlarına maraq artmış, XXI əsrin əvvəlində sivilizasiya problemi ön plana keçmişdir.

Çağırış və cavab qanunu sivilizasiyanın inkişafını müəyyən edir. Tarixi situasiya, yaxud təbiət faktları cəmiyyət qarşısında problem ("çağırış") qoyur. Cəmiyyətin sonrakı inkiaşfı həll ("cavab") variantının seçimi ilə müəyyənləşir. Əgər lazımi səviyyədə cavab tapılmırsa, cəmiyyətdə anomaliyalar yaranır və onların toplanması "parçalanmaya", sonra isə tənəzzülə səbəb olur. Çağırışlara adekvat reaksiyanın işlənib hazırlanması "yaradıcı" azlığın sosial funksiyasıdır. Bu "azlıq" ideyanı təklif edir və həyata keçirir, həm də başqalarını öz ardınca aparır.

Bu yarımfəsildə mədəniyyətlərin və sivilizasiyaların inkişafı baxımından müxtəlif çağırışlardan bəhs olunmuşdur.

"Soyuq müharibə"nin başa çatmasından sonra beynəlxalq leksikona "çoxqütblü dünya", "vahid dünya", "vətəndaş cəmiyyəti", "demokratik tranzit", "xaoslu dünya" və s. bəşəriyyəti düşüdürən anlayışlar daxil

olmuşdur. Yeni intellektual modellər sırasında "sivilizasiyaların dialoqu" konsepsiyası da mühüm yer tutur. Hantinqtonun "Sivilizasiyaların toqquşması" əsərindən sonra bu konsepsiyaya maraq daha da artmışdır.

1998-ci ilin payızında İranın sabiq prezidenti M.Hatəminin sivilizasiyalar arasında dialoq uğrunda hərəkatın təşkil olunması barədə təklifindən sonra BMT 2001-ci ili "Dialoq ili" elan etmişdir. 2001-ci ilin noyabırnda BMT –nin Baş Məclisinin 56-cı sessiyasında "Günün sivilizasiyalararası dialoqu üçün qlobal gündəliyi" təsdiq edilmişdir. Bu sənəd dialoq ideyasını "sülh mədəniyyətini və sivilizasiyalararası dialoqu təşviq etmək" konsepsiyasına istiqamətləndirmişdir. Qlobal gündəlikdə sivilizasiyalararası dialoqun səciyyəvi cəhətlərinə diqqət yetirilmişdir:

-sivilizasiyaların daxilində və onların arasında gedən dialoq vasitəsilə müxtəlif yanaşmalar vahid tamda birləşir;

-dialoq insanlar arasında münasibətlərdə bərabərliyə, bərabər hüquqlara, ədalətli olmağa, dözümlülüyə, qarşılıqlı anlaşma və hörmətə, qarşılıqlı zənginləşməyə, biliklərin inkişafına, bütün sivilizasiyaların zənginliyini başa düşməyə və sivilizasiyaları birləşdirməyə, müxtəlif sahələrdə cəmiyyətin mənafeyi naminə ümumi təhlükəni aradan qaldırmağa şərait yaradır.

11 sentyabr 2001-ci il hadisəsi ilə "sivilizasiya gündəliyi" yeni məna kəsb etdi. Qərblə İslam dünyası arasındakı münasibətlər sivilizasiyalararası dialoqa mane olan amilə çevrildi.

BMT sivilizasiyaların dialoqu konsepsiyasına sülhməramlı təşəbbüs kimi əhəmiyyət verir. Mədəniyyətlərin və sivilizasiyaların görüşünün simvolik məkanında mədəniyyətlərarası əlaqələr və müzakirələr zamanı dialoqun köməyi ilə bəşəriyyəti narahat edən məsələləri yoluna qoymaq imkanı yaranır. Hazırda dünyada hərbi-siyasi qarşıdurmaların, qlobal problemlərin artması dini dözümsüzlüyün, mədəni müstəsnalığın və ksenofobiyanın yayılması, risklərin çoxalması, dünya inkişafının qeyri-müəyyənliyi və s. məsələlərin həllinin çətinliyi sivilizasiyaların dialoquna tələbatı artırır.

Son illər "qlobal mədəniyyət" anlayışının özü, onun imkanları inkar edilir. Qlobal normaların tənqidi "avropasentrizm"in dağılmasına yönəlmişdir ki, məqsəd müxalif əks ideologiya kimi yenidən yaranan universalizmə yol açmaqdır.

Cəmiyyətlər öz qanunlarına əsasən fəaliyyət göstərir, öz qaydaları ilə yaranır və inkişaf edirlər. Zaman keçdikcə bu cəmiyyətlərdə tarazlıq

pozulur və xaotik tərəddüdlərə, yeni nizama keçid baş verir. Bu isə əvvəlki ictimai-tarixi sistemin sonu deməkdir.

Sivilizasiyalararası dialoqun mənası birbaşa və ya bilvasitə siyasi dialoqun mənası ilə eyniləşdirilir (mövqelərin razılaşdırılması, konkret, praqmatik məsələlərin həlli). Bu mövqedən çıxış edənlər “Sivilizasiyaların alyansı”nın məqsədini “ölkələr və xalqların mədəniyyətləri və dinləri arasında qarşılıqlı anlaşmanın və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsində və bu prosesdə cəmiyyətdə qütbləşməni dərinləşdirən və ekstremist əhval-ruhiyyəni qızışdıran qüvvələrlə mübarizədə yardım göstərilməsində görürlər[1].

Qloballaşma prosesləri dərinləşdikcə sivilizasiyaların toqquşması və onların dialoqu probleminə maraq daha da artır. Dialoq mədəniyyətini reallaşdırmaq üçün təkcə müxtəlif mədəni sərhədləri aradan qaldırmaq iqtidarında olan insan deyil, həm də öz daxili aləmini dəyişməyə qadir olan yaradıcı şəxsiyyət tələb olunur. Sivilizasiyanın inkişafı naminə insan ömrü boyu informasiya daşıyıcısı, mükəmməl varlıq kimi inkişaf etməlidir.

Qarşılıqlı etimad və razılıq paradiqması sivilizasiyaların dialoqunun əsasını təşkil edir. Bu paradiqmanın konseptual məzmunu BMT katibliyinin təklifi ilə müxtəlif ölkələrin 18 aparıcı alimi tərəfindən hazırlanmış “Maneələri aradan qaldıraraq sivilizasiyalar arasında dialoq” əsərində tapmışdır. Müəllifləri mədəni fərqlərin vəhdəti və çoxluğunu ehtiva edən siyasi mədəniyyəti ümumiləşdirilmiş şəkildə təqdim etməklə mədəniyyətlərin və sivilizasiyaların dialoqunun şərtlərini irəli sürmüşlər.

**“Antiqlobalizm və sivilizasiya identikliyi”** adlanan üçüncü yarımfəsildə qloballaşma və dünya informasiya sivilizasiyasının təşəkkülü prosesində müxtəlif mədəni dəyərlərin qarşılıqlı əlaqəsinin universal dəyərlərin və mədəniyyətlərin dərk edilməsinə təkan verməsindən, müəyyən cəmiyyətlər üçün ənənəvi olan dəyərlərin dəstəklənməsi yolunda yaratdığı problemlərdən bəhs olunur.

Bu yarımfəsildə dünya birliyinin inkişaf strategiyası və taktikasının hazırlanması üçün antiqlobalizmin perspektivlərinin müəyyənləşdirilməsinə, onun təbiətindən irəli gələn qüsurlara diqqət yetirlmişdir.

Antiqlobalizm fenomeninin nəzəri cəhətdən öyrənilməsi XX əsrin 90-cu illərinə təsadüf edir. Lakin bu fenomenin tədqiqində yeni mərhələ 2001-

---

[1] Альянс цивилизаций. Первый форум Альянса цивилизаций. Мадрид, Испания, 15-16 января 2008.http:// www.un.org/rusian/dialogue/alliance.

ci ildə keçirilmiş Ümumdünya sosial forumu ilə bağlıdır. Bu forum bütün beynəlxalq antiqlobalist qüvvələrin neoliberal qloballaşmaya alternativ birlik kimi qiymətləndirilir. Antiqlobalizmin yeni ideya-nəzəri və praktik səviyyəyə qalxması dünya miqyasında bu yeni sosiomədəni hərəkatın əsaslı şəkildə öyrənilməsini aktuallaşdırmışdır. Antiqlobalizmin nəzəri təhlili sivilizasiyalararası dialoqun insan kontekstində öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Bu yarımfəsildə neoliberalizmin mahiyyəti və tələblərinə onu həyata keçirən təsisatların fəaliyyətinə diqqət yetirilmişdir.

XXI əsrdə neoliberal qloballaşma dünya geosiyasi məkanının iqtisadi və siyasi sferaya bölünməsi uğrunda mübarizənin əksidir. Böyük dövlətlərin siyasi-iqtisadi ambisiyaları digər dövlətlər üçün həlli son dərəcə çətin olan sosial problemlər yaradır. Qloballaşma insanların mentalitetinə, sosial davranışına, mədəni həyatlarına böyük təsir göstərir, sosiomədəni motivlərdə və dəyərlərdə dəyişikliklər yaradır.

Şəxsiyyətin müəyyən sosiomədəni mühitlə, yaxud qrupla əlaqələrinin kəskin şəkildə zəiflədiyi bir şəraitdə qloballaşmanın təsiri nəticəsində müasir cəmiyyətlərin fərdiləşməsi prosesi baş verir ki, bu zaman şəxsiyyət norma və dəyərlər sistemindən, davranış standartlarından məhrum olur. Şəxsiyyətin sosial davranış xüsusiyyətlərinin, onun cəmiyyətlə münasibətlərinin dəyişməsi son nəticədə sivilizasiyaların tarixi inkişafına neqativ təsir göstərir, mədəni differensiasiyanın elementlərinin aradan çıxmasına səbəb olur.

Birqütblü dünya qurmağın neoliberal nəzəriyyəsi və praktikasına qarşı çıxaraq antiqlobalistlər başqa bir müasir dünyanın sosiomədəni və siyasi-iqtisadi inkişaf modelini təklif edirlər. Antiqlobalist hərəkatın mahiyyəti bundadır ki, o, plüralist və çoxaspektlidir. Onun üçün iştirak demokratiyası səciyyəvidir. Antiqlobal hərəkatın sosial tərkibi genişdir və müxtəlif ideoloji yönümlü təbəqələri əhatə edir.

2002-ci ilin avqustunda 500 ictimai və siyasi təşkilatın Buenos-Ayresdə keçirdiyi Beynəlxalq sosial forumda 15 minə yaxın insan iştirak etmişdir. Onlar kapitalist qloballaşmasının alternativlərini, ictimai özünütəşkilatlandırma imkanlarını, qitə miqyasında etiraz aksiyaları keçirmək və s. məsələləri müzakirə etmişlər.

2002-ci ilin noyabrında Florensiyada ilk dəfə 1 milyon nəfərin iştirakı ilə Avropa sosial forumu keçirilmiş və iştirakçılar İraq müharibəsinə hazırlığa öz etirazlarını bildirmişlər. 2004-cü ilədək Beynəlxalq sosial

forum 1200-ə qədər tədbir keçirmiş və burada 132 ölkədən 80 min nəfər iştirak etmişdir.

Antiqlobalist hərəkatının iştirakçıları sırasında müsəlmanlar da var. Onların Qahirədə hərbə qarşı keçirilən V konfransında Islam dünyasında əməkdaşlığın inkişaf etdirilməsi, sol antiqlobalistlər (onlar təcavüzə məruz qalan azlıqları müdafiə edirlər) və müsəlmanlarla əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilmişdir.

Beləliklə, antiqlobalizm sosiomədəni fenomen kimi qlobalizmin törəməsi və onun spesifik əksidir. Birincisi, qlobalizmin tərəfdarları antiqlobalizmi qəbul edənlərdən daha mütəşəkkildirlər. İkincisi, qlobalistlərin sərəncamında hakimiyyət, çoxlu resurslar vardır, bu isə onlara nəinki dünyada öz mövqelərini müdafiə etməyə, həmçinin öz təsir dairələrini genişləndirməyə imkan verir. Üçüncüsü, qlobalistlərin dəqiq və aydın məqsədləri, dərk olunmuş prioritetləri var, halbuki qlobalistlər antiqlobalistlərə qarşı çıxarkən özlərinin bütün məsələlər üzrə pozitiv proqramlarının olmadığını biruzə verirlər. Digər tərəfdən onlar təşkilati cəhətdə zəifdirlər, hakimiyyət strukturlarında təmsil olunmurlar və tərəfdarları da yoxdur. Antiqlobalizm çox zaman ümumi konstruktiv əsasda deyil, qloballaşma prosesinin özü ilə gətirdiyi çoxlu sayda təhlükəli məqamların dərk olunması əsasında formalaşır. Antiqlobalistlərin dünyagörüşündə mühüm element Qərb dəyərlərini imperiya metodları ilə başqa ölkələrə və xalqlara zorla qəbul etdirilməsinə qarşı mübarizədir. Onların ideologiyasında öz mədəniyyətlərinin spesifikliyini, unikallığını qorumaq, müstəqil inkişaf yolunu seçmək imkanlarına nail olmaq mühüm yer tutur.

Antiqlobalistlər hesab edirlər ki, mədəniyyətlərin inkişafına, sivilizasiyaların dialoqunun real gedişinə mane olan amillərdən biri "mədəni imperalizm" siyasətidir.

İctimai inkişafın nəticəsi olan qlobal problemlər və onların həllində dialoqun vacibliyi yeni tarixi şəraitdə sosial-iqtisadi, siyasi, elmi-texniki, demoqrafik, ekoloji, mədəni inkişafın qeyri-bərabərliyi ilə əlaqədardır.

Müasir sivilizasiya çoxlu qlobal böhranlar yaratdığından onun inkişaf strategiyası və dəyərlər sistemi yeni konsepsiyalar əsasında dərk edilməlidir. Buna görə də dialoq prosesində aparıcı arqument olan dəyərlər sistemi müstəsna əhəmiyyət kəsb edir. Mövcud sivilizasiya konsepsiyalarının təhlilinə əsasən qeyd etmək olar ki, ənənəvi sivilizasiya tipi regionda (məsələn, Qərb sivilizasiyası) yaransa da, bu gün o təkcə bir regionda deyil, dünya miqyasında təzahür edir. Bir çox tədqiqatçıların bu

fenomeni "texnogen sivilizasiya" adlandırması düzgündür, çünki onun inkişafında yeni texnologiyaların axtarışı və tətbiqi aparıcı rol oynayır. Texnogen inkişaf üçün səciyyəvi olan dəyərlər sistemi özündə insanın dünyada yeri məsələsini başa düşmək problemini ehtiva edir.

Sivilizasiya identikliyi fərdin, etnosun və ya dövlətin müəyyən sivilizasiyaya mənsubluğunu ifadə edir. Müasir elmi ədəbiyyatda sivilizasiya identikliyi problemi üç aspektdə tədqiq edilir.

1.Sivilizasiya və sivilizasiyalararası xalqların taleyi kimi "əbədi" problemlər (məsələn, Şərqi Avropa, Qafqaz, türk, monqol, Şərqi Asiya, Çin və Rusiya ilə həmsərhəd olan xalqlar). Qonşu sivilizasiya birliyinə aid olmayan xalqlar (islam, Çin, hind, yapon, rus, Şimali Atlantika) bu birliklərlə müqayisədə mədəni, siyasi və təsərrüfat cəhətdən özlərini müəyyən etmək məcburiyyətində qalmış, onların "ucqarlar"a aid olması və "ara" vəziyyəti bu xalqlarda "zəiflik" psixologiyasını formalaşdırmış və buna görə də onlar strateji özünütəsdiq şansından istifadə etməyə səy göstərirlər.

2.Avratlantikanın qlobal liderliyi şəraitində köhnə sivilizasiyaların (hind, Çin, ərəb, Iran, yapon) şəraitində "dünya sivilizasiyası"nın periferik mədəni qrupları səviyyəsinə enməsi təhlükəsi yaranır və bu birliklər müxtəlif formalarda öz sivilizasiyasını qorumağa səy göstərirlərlər.

3. Latın Amerikasında dini-mədəni və siyasi proseslər (məsələn, Braziliyida umibanda və kondomble tipli dinlərin uğur qazanması, öz materiklərini "əsas torpaq", qitənin xalqlarını isə "əsas bəşəriyyət" adlandırması) "qitə şüuru"nun təzahürlərinə imkan vermiuşdir. Bu isə onu göstərir ki, dünyanın bir çox nöqtələrində "xüsusi sivilizasiya identikliyi" formalaşmaqdadır.

XIX əsrdə "lokal sivilizasiya" anlayışının meydana gəlməsi, Qərbi Avropa və Rusiyanın sivilizasiya spesifikliyinin müəyyənləşdirilməsi cəhdləri təqdir olunmalıdır. "Lokal sivilizasiyalar" nəzəriyyəsinin meydana gəlməsilə sivilizasiya identikliyi identikliyin spesifik forması kimi dərk olunmağa başlanmış, o, refleksiyanın və modelləşdirmənin obyektinə çevrilmişdir.

Müasir sivilizasiyalar lokal sivilizasiyaların iri regional makrobirlikləridir. Dünya sivilizasiya məkanının strukturlaşması başa çatmadığı üçün ehtimala görə belə sivilizasiyaların sayı arta bilər. Proqnozlara görə yeni, formalaşmaqda olan sivilizasiyalar, birliklər "okean-qitə" formatında olacaqlar (məsələn, Sakit okean – Amerika – Atlantika, Atlantika – Avrasiya – Sakit okean, Hind okeanı – Cənubi Şərqi

Asiya – Sakit okean və s.). Bu zəmində gələcəkdə yeni problemlər ortaya çıxa bilər, öz valyutası, idarəetmə strukturları, hüquqi təsisatları, təhlükəsizlik sistemi olan saxta dövlətlər yarana bilər.

Marginal insan sivilizasiya məkanında qlobal qeyri-müəyyənlik şəraitində öz identikliyini axtarmağa məhkumdur, lakin onun psixologiyasında artıq mürəkkəbliyi dərk etməkdən imtina və lokal mədəniyyətə qaçmaq hissi hakimdir. Lokal mədəniyyətə meyl daxili sivilizasiya identikliyinə güclü zərbə vurur, çünki fərdi "təbii" birliyə qaytaran etnik identiklik daha cəlbedici qüvvəyə malikdir.

Sivilizasiyalararası dialoqu aktuallaşdıran bir amil də Qərb identikliyi ilə bağlıdır. Hazırda Qərb alimləri etiraf edirlər ki, inkişaf etməkdə olan ölkələrdən gələn güclü miqrant dalğası Avropa identikliyini "yumaqdadır". Mütəxəssislərin fikrincə hətta uğurla adaptasiya olan miqrantlar "özgə" normaları və dəyərlərini tamamilə qəbul etmirlər. Onların adaptasiyası daha çox praqmatik xarakter daşıyır.

Qərb cəmiyyəti seqmentləşdiyi üçün Avratlantik sivilizasiya "üçüncü dünya" sivilizasiyasının üstünlük təşkil etdiyi bölgədə qalmaq perspektivini bölüşdürməlidir. Belə ki, "üçüncü dünya" ölkələrinin xalqlarının böyük əksəriyyəti qədim tarixə, mədəniyyətə, özünəməxsus sivilizasiya potensialına malikdir.

Beləliklə, müasir sivilizasiyanın ziddiyyətli təzahürləri mədəniyyətlərarası və sivilizasiyalararası dialoq prosesinə təsir göstərir, sivilizasiya və mədəniyyətlərin hazırki durumu isə dialoq prosesinin zəruluiliyini aktuallaşdırır.

Dissertasiyanın **"Mədəniyyətlərin və sivilizasiyaların sosiomədəni inkişaf strategiyası dialoqun predmeti kimi"** adlanan üçüncü fəsli dörd yarımfəsildən ibarətdir. **"Sivilizasiyaların konflikti və mədəni dialoq"** adlı birinci yarımfəsildə dünyanın mədəni, sivilizasiya parametrləri üzrə yeni tarixi inkişaf mərhələsinə qədəm qoyması və bunun sivilizasiyalar arasında qarşıdurmaya səbəb olmasından bəhs edilir.

Yeni dünya nizamını ABŞ-ın maraqlarına uyğun qurmaq cəhdləri bütün qeyri-Qərb dünyasının etirazına səbəb olmuşdur. Bu da yeni qlobal qarşıdurmanın real səbəblərinin araşdırılmasını aktuallaşdırır.

Sivilizasiyalararası dialoqun həyata keçirilməsini çətinləşdirən amillərdən biri millətçilik və irqçilik təlimlərinin həll olunmayan konfliktlərdən bəhs etməsidir.

Siyasi həyatı dəyişmədən, əvvəllər çoxluğun əsaslandığı baxışlardan imtina etmədən ziddiyyətləri həll etmək qeyri-mümkündür.

Bu yarımfəsildə mədəni konfliktlərin həllində ümum bəşəri dəyərlərin konstruktiv rolundan, dialoqda mədəni müxtəlifliyin potensialından istifadə olunmasından və dialoqun yeni meyarlarının əhəmiyyətindən bəhs edilmişdir. Səmimi dialoq, açıq müzakirələr müxtəlifliyin daha dərindən başa düşülməsi üçün mühüm əhəmiyyət kəsb edir, stereotiplərin düzgün qavranılmaması hallarını aradan qaldırır, fərqlərin aşkar edilməsi və ehtimalın möhkəmləndirilməsində mühüm rol oynayır. Sosial birliyin və həmrəyliyin əsasını təşkil edən humanist və universal dəyər və prinsiplər (tolerantlıq, insan hüquqları, demokratiya, qanun, mədəni müxtəliflik və s.) bütün sivilizasiyalarda təzahür edir. Demokratik cəmiyyətin inkişafı onun vətəndaşlarının özgəsinin, başqa sosiomədəni qurumların dəyərlərinə inteqrasiya etməsi bacarığı ilə bilavasitə bağlıdır. Bu həm də sivilizasiya konfliktlərinin aradan qaldırılması və mədəniyyətlər arasında davamlı dialoqun yaradılmasının şərtidir. Mədəni zorakılıq, dondurulmuş konfliktlər, dialoq mədəniyyətinin zəif olması sivilizasiyalar üçün birbaşa təhlükə yaradır. Konfliktlrəin sivil, dinc yolla həlli üçün obyektiv şəraitin olması olduqca vacib məsələdir və bu məqsədlə aşağıdakı amillərə diqqət yetirilməlidir:

-qanunun aliliyi sayəsində dövlətin cəmiyyəti qorumaq iqtidarında olması;

-qanunçuluğa riayət edilməsi siyasiləşmiş cəmiyyətlərdə baş verən ciddi ixtilafların aradan qaldırılmasını təmin edən sosiomədəni şəraitin yaradılmasının vacib sosial mexanizmidir;

-sosial konflikt zamanı məqsəd öz rəqibini neytrallaşdırmaq, ona ziyan vurmaq, ya da onu məhv etməkdir. Bu prosesdə emosiyaların xarakteri və təbiəti üzə çıxdığı üçün daxili gərginliyi aradan qaldırmaq məqsədlə dialoq prosesində tərəflərin emosiyalara öz nəzarəti olmalıdır;

-sosial ədalət prinsipinin bərqərar olması dialoq iştirakçılarının bərabər-hüquqlu tərəflər kimi öz baxışlarını sərbəst ifadə etməsinə imkan verir;

- konfliktlərin konstruktiv həlli sivilizasiyalararası dialoqun konstruktiv əsasda aparılmasının mühüm şərtidir.

Müasir dialoq mədəniyyətində əsas rolu sivilizasiya mənlik şüuru və sivilizaisya dəyərləri oynayır. Bu dəyərlər həmişə universallığa meyllidir, fundamental ziddiyyətlərin həllinə, bəşəriyyəti birləşdirməyə cəhd göstərir və dünya mədəniyyətinin əsası olmağa can atır.

**“Sivilizasiyalararası dialoqda Şərq-Qərb problemi”** adlı ikinci yarımfəsildə “sivilizasiyalararası dialoq”un əhəmiyyətindən və onun müasir vəziyyətindən bəhs olunur.

Sivilizasiyaların dəyər strukturlarının bir araya sığması nəticəsində onların dialoqları məhsuldar və qarşılıqlı təsiri güclü olur. Inteqrasiya, mədəni maneələrin aradan qaldırılması qarşılıqlı anlaşma yolu ilə deyil, daha çox resurslar (pul, hakimiyyət və strukturlar) hesabına əldə edilir. Lakin belə hallar Şərq və Qərb sivilizasiyaları və mədəniyyətlərinin dialoquna təhdidlər yaradır. Ən böyük qlobal təhlükə birqütblü dünya üçün “antidialoq” ideologiyası və praktikasının yaranmasıdır. Bu hal beynəlxalq dialoqun imkanlarını azaldır. Köhnə elitaların devrilməsi, mədəni dəyərlərin qiymətdən düşməsi, dini fərqlərin və mənəvi ənənələrin siyasiləşməsi kimi hallar təhlükəni artırır.

Beynəlxalq terrorizmin mistifikasiyalaşdırılması, mübarizə aparmaq qaydalarının qeyri-müəyyənliyi, qlobal və regional böhranların dərk edilməsinin çətinliyi sivilizasiyaların toqquşması üçün təhlükəli zəmin yaradır.

Qloballaşma proseslərinin ziddiyyətli xarakterinə baxmayaraq, Şərqlə Qərb arasında sivilizasiyalararası və mədəniyyətlərarası dialoq xüsusi aktuallıq kəsb edir.

Son illərin elmi tədqiqatlarında belə bir aksioma hakimdir ki, Şərq-Qərb dixotomiyası iki tip mədəniyyətin və iki tip təfəkkürün təcəssümüdür. Bu səbəbdən də Şərq-Qərb problemi bəşəriyyət üçün ən həyati problemdir. Tarix boyu Şərqlə Qərb arasında münaqişəli qarşıdurma ilə yanaşı, qarşılıqlı təsir və qarşılıqlı anlaşma da olmuşdur.

Bu yarımfəsildə dialoqun Şərq və Qərb sivilizasiyaları arasında üzə çıxardığı fərqlərə diqqət yetirilmişdir. Hər iki sivilizasiyanın meydana gəlməsi, formalaşması və inkişafı məhz bu bu fərqlərlə şərtlənir.

Əgər əvvəllər sivilizasiyalararası fərqlərin və ziddiyyətlərin əsasında sosial, dini və mədəni amillər dururdusa, hazırda onları siyasi və iqtisadi amillər əvəz edir. “Asiya pələngləri”nin iqtisadi inkişafı bu gün Şərq-Qərb münasibətlərinə yeni ideoloji və mədəni impuls vermiş, Asiya və Afrika kontinentində yeni lokal nəzəriyyələrin meydana gəlməsinə, “Asiya dəyərləri” konsepsiyasının formalaşmasına səbəb olmuşdur.

Sivilizasiyalararası dialoqda “Şərq-Qərb” amilindən bəhs edərkən İran İslam Respublikasının sabiq prezidenti Məhəmməd Hatəminin

“sivilizasiyaların dialoqu” konsepsiyası diqqəti cəlb edir[1]. Hantinqtondan fərqli olaraq M.Hatəmi sivilizasiyanın rəngarəngliyinin sivilizasiyaların toqquşması üçün əsas olmadığını bildirir. Əksinə, sivilizasiya fərqləri və mentallıqlar xalqların qarşılıqlı anlaşmasını stimullaşdırır. O, sivilizasiyalar arasındakı dioloqu mövcudluğun zəruri şərti hesab edir. Onun fikrincə, Qərbin İslam sivilizasiyası ilə dialoqu Qərb üçün səmərəlidir.

Misir filosofu Zəki Nəcib Mahmud “sivilizasiyaların toqquşması” ideyasına qarşı “sivilizasiyaların görüşməsi” ideyasını irəli sürmüşdür”.

Elmi ədəbiyyatda Şərq-Qərb müxalif formada (sabitlik-qeyri sabitlik, təbiilik-sünilik,kollektivçilik-fərdiyyətçilik, quruculuq-azadlıq, substansionallıq-şəxsiyyət, hissilik-rasionallıq, mənəviyyat-maddilik, nizam-tərəqqi, davamlılıq-inkişaf və s.) bir-birinə qarşı qoyulur.

**”Yeni humanizm mədəniyyətlərin və sivilizasiyaların dünyagörüşünün əsasıdır”** adlı üçüncü yarımfəsildə “yeni humanizm”dən mədəniyyətdən istifadə və cəmiyyət həyatında iştirak üçün bərabərlik, müxtəlif xalqlarla dialoq, həmrəylik kimi bəhs olunmuşdur. “Yeni humanizm” anlayışının dərk olunmasında YUNESKO-nun “XXI əsrdə yeni humnaizm” proqram sənədinin xüsusi əhəmiyyəti vardır.

Sivilizasiyanı qorumağın başlıca şərti insanların qlobal birliyinin təmin olunmasıdır. Yeni humanizmi bəşəri dəyər kimi qəbul edərkən biz heç də onun əvvəlki formalarından imtina etmirik. BMT-nin Nizamnaməsində qeyd olunur ki, sülhə və çiçəklənməyə yalnız iqtisadi və siyasi qərarlar təminat vermir. Davamlı sülh və ümumi çiçəklənmə bəşəriyyətin intellektual və mənəvi əməkdaşlığı olmadan qeyri-mümkündür.

Yeni qlobal birlik yaratmaq və məqsədə nail olmaq üçün intellektual potensiala əsaslanmaq bu gün sivilizasiyalararası dialoqda başlıca disskusiya predmetidir. YUNESKO-nun konsepsiyasında bu amil yeni humanizmin başlıca məqsədi kimi vurğulanır.

Neohumanistlər dialoqa can atır, dini və qeyri-dini birliklərlə əməkdaşlığa meyl göstərir. Neohumanizmdə şəxsi və sosial yönümlü dəyərlərə (dözümlülük, ədalət, plüralizm, konsensus, kompromis, şəfqət, mərhəmət, məhəbbət və s.) xüsusi əhəmiyyət verilir. Müasir dövrün

---

[1] Хатами С.М. В человеке сосредаточены душа Востока и разум Запада. М., 2001

Хатами С.М. Ислам, диалог и гражданское общество. М.: РОСПЕП, 2001, 242 с.

humanizmi vətəndaş mədəniyyəti və əxlaqının yetkin səviyyəsinə əsaslanan demokratik dünyagörüşü kimi səciyyələndirilir.

**“Mədəniyyətlərin və sivilizasıyaların dialoqunda multikulturalizm problemi”** adlı dördüncü yarımfəsildə multikulturalizmdən konstruktiv potensiala malik fenomen kimi bəhs edilir. Artmaqda olan mədəni müxtəliflik multikultural dəyərlərə əsaslanan yeni tipli liberalizmin fromalaşmasını şərtləndirir.

Tarixən dörd əsas multikultural cəmiyyət tipi (müasirlikdən əvvəl yaranmış imperiyalar, Yeni Dünyaya edilən köç, müstəmləkə və keçmiş müstəmləkə cəmiyyətləri, postmilli multikultural cəmiyyətlər) təşəkkül tapmış və bunlardan hər birinin öz tarixi mənşəyi və öz dinamikası olmuşdur. Belə cəmiyyətlər müasir Şimali Amerika, Okeaniya və Qərbi Avropa əraziləri üçün səciyyəvidir. Son vaxtlarda Qərbi Avropanın böyük hissəsi spesifik yekcins mədəniyyət ərazisinə çevrilmişdir.

Yeni multikulturalizm yerli xalqların və Amerika zəncilərinin özünütəsdiq və mənlik şüurunun artması, yeni mədəni hərəkatların yaranması sayəsində meydana gəlmişdir.

Bu yarımfəsildə multikulturalizmin həyata keçirilməsinin Amerika, Kanada, Avstraliya praktikasına, müxtəlif konsepsiyalara diqqət yetirilmişdir.

Multikulturalizm qloballaşmanın sosiomədəni paradiqmasıdır. Sosial böhranlar, ideallların, dəyərlərin itirilməsi, sosial tarazlığın bərpa edilməsinə kömək edən yeni dəyər imperativlərinin axtarılması tələbatını yaradır. Bu sitiuasiya multikulturalizmin əsas prinsiplərinin araşdırılmasını və mədəniyyətlərin dialoqunu əhəmiyyətini artırır. Multikulturalizm bəşəriyyəti azadlığa, bərabərliyə və demokratiyaya gətirib çıxarmağa qadirdir.

1994-cü ildə S.Rokfeller M.Qorbaçov və M.Stronqla (Yer Şurasının banisi və sədri) birlikdə Yer Xartiyasını yaratmışdır. Yer Xartiyası Beynəlxalq Bəyannamə olub XXI əsrdə davamlı və dinc cəmiyyətin qurulmasının başlıca prinsiplərini və dəyərlərini elan etmişdir. S.Rokfeller multikulturalizmi gələcək nəsillərin mövcudluğunun əsas modeli hesab etmişdir.

Multikulturalizmin paradoksu bundadır ki, o, nəzəri ideyaların həyata keçirilməsi praktikası ilə üst-üstə düşmür. Milli azlıqların, onların mədəniyyətləri və həyat tərzinin inkişafı elə bir həddə çatır ki, bu zaman o, multikulturalizmin əsas prinsipləri (hamıya açıq olmaq və tolerantlıq) ilə ziddiyyət təşkil edir.

Siyasətçilər multikulturalizmi iki cəhətdən (şovinist və liberal) tənqid edirlər. Şovinist tənqid inkişaf etmiş ölkələrdə assimliyasiyanın, təbii təşəkkül tapmış mədəni müxtəlifliyin zorakı yolla monomədəniyyətlə əvəz olunmasını nəzərdə tutur. Liberal tənqid isə multikulturalizmin dövlətdə insanların həyatının mühüm cəhəti olan inteqrasiyanı təmin etmədiyini bildirir. Dünyanın bir çox ölkələrinin sosiomədəni həyatında qapalı monoetnik, monodini, monoirqi məhəllələr və təhsil müəsissələri mövcuddur. Multikulturalizm siyasətinə stimul verən Almaniya bu gün immiqrasiya dilemması qarşısındadır.

Multikulturalizm siyasəti ilə multikultural identiklik sıx bağlıdır. Qloballaşmadan əvvəlki dünyanın monoidentikliyi qlobal dünyanın poliidentikliyi ilə əvəz olunmuşdur ki, bu da multikultural identiklikdir.

Beləliklə, sivilizasiyalar öz aralarında daimi dialoq vasitəsilə bəşəriyyətin sosial harmoniyasını təmin edə bilərlər. Hazırda bəşəriyyət tolerantlığa mədəniyyət norması kimi yanaşır, tolerant şüurun formalaşmasını sivilizasiyanın ahəngdar inkişafının mühüm sosiomədəni mexanizmi kimi qəbul edir. Tolerantlıq mədəniyyətlərin dialoqunun əxlaqi-psixoloji əsasıdır.

**“Azərbaycan sivilizasiyalararası dialoq sistemində”** adlı dördüncü fəsil üç yarımfəsildən ibarətdir. **“Azərbaycan “Şərq-Qərb” sivilizasiyalararası dialoq sistemində”** adlı birinci yarımfəsildə “Şərq-Qərb” sivilizasiyalararası dialoqda Azərbaycanın yeri və rolu müəyyənləşdirilmiş, onun dünyaya inteqrasiyasının mədəni-mənəvi amillərinə diqqət yetirilmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanı mədəniyyət və düşüncə tərzinə görə Şərqlə Qərbin harmonik vəhdət arazisi hesab etmişdir.

Müasir dövrdə qloballaşma proseslərinin beynəlxalq əlaqələrin gücləndiyi ölkələr arasında kommunikasiyanın genişləndiyi şəraitdə dinc yanaşı yaşamaq, milli identikliyi saxlamaq üçün mədəniyyətlərarası dialoqa tələbat artır. Bu gün Azərbaycan modernləşmə yolunda əldə etdiyi nailiyyətlə Şərqin əksər ölkələrini geridə qoymuş, tolerant dövlət nüfuzunu qazanmış və dialoq məkanına çevrilmişdir.

Hazırda dünyanın müxtəlif ölkələrində fərqli mədəniyyətlərin toqquşması nəticəsində neqativ tendensiyalar (islamafobiya, irqçilik, ksenofobiya, antisemitizm və s.) artır. Bəzən belə neqativ halların süni şəkildə alovlandırılması mədəni dəyərlər və identiklik səviyyəsində toqquşmaları dərinləşdirir, nəticədə insan haqlarının, sosial sabitliyin pozulmasına şərait yaradır.

Azərbaycanda isə tarixi kökləri olan multikulturalizm, dözümlülük və qarşılıqlı hörmət mühitində sabitlik, təhlükəsizlik, insan hüquqlarının müdafiəsi təmin edilmişdir.

Azərbaycanın beynəlxalq siyasi mövqelərinin güclənməsi ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində milli maraqlara əsaslanan siyasi qətiyyət diplomatiyasını davam etdirməyə imkan verir.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası və enerji siyasətinin ölkəmizin beynəlxalq əməkdaşlıqda önəmli yer tutması və sürətli iqtisadi inkişafında, eləcə də dünyaya inteqrasiya prosesində böyük rolu vardır. Ölkəmizdə keçirilən hər bir forum, siyasi, iqtisadi və mədəni tədbir Azərbaycanı dünyaya tolerantlıq və multikulturalizm ölkəsi, onun paytaxtını isə sivilizasiyalararası dialoq məkanı kimi tanıdır.

Ölkəmizin Şərq-Qərb dəhlizinin formalaşdırılmasında rolunun artmasını Şərq-Qərb sivilizasiyasının gələcək inkişafına mühüm təsir göstərən amil hesab etmək olar.

**“Azərbaycanda insan potensialının inkişafı prioritet hədəf kimi”** adlı ikinci yarımfəsildə “davamlı inkişaf”ın mahiyyəti və məqsədi açıqlanmış, davamlı inkişafla yoxsulluğun aradan qaldırılması arasındakı əlaqəyə, davamlı inkişafı təmin edən şərtlərə (şəxsiyyətin toxunulmazlığı, insanların əsas təlabatlarının ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, biomədəni müxtəlifliyin müdafisəi, daha səmərəli texnologiyaların tətbiqi), onun üçün təhlükə yaradan amillərə diqqət yetirilmişdir.

Davamlı inkişaf dəyişikliklər prosesi kimi insan tələbatlarının reallaşdırılması üçün indiki və gələcək potensial arasında balansı təmin edir.

Müasir dövrdə Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri davamlı iqtisadi inkişafa nail olmaq, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyini yüksəltmək məqsədilə insan resurslarının, insan kapitalının inkişaf səviyyəsinin dövrün tələblərinə cavab verməsi üçün tədbirlər görməkdir.

7 may 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu yaradılmışdır. Fond ölkədə təhsilin inkişaf səviyyəsi və innovasiyalılığın yüksəldilməsində, əhalinin maarifləndirilməsində, mütərəqqi bilik və informasiyalara yiyələnməsində, həyata keçirilən daxili və xarici siyasətin dərk olunmasında xüsusi rol oynayır.

Ölkədə insan kapitalının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi üçün müxtəlif amillərin (sosial-iqtisadi, makroiqtisadi situasiya, iqtisadi inkişaf strategiyası, yoxsulluq və sosial-iqtisadi qeyri-bərabərliyin səviyyəsi, səhiyyə və təhsilin keyfiyyəti; inkişaf strategiyasının səmərəliliyi və insan resurslarından istifadə) təsiri nəzərə alınmalıdır.

1990-cı ildən etibarən BMT-nin İnkişaf Proqramı (BMTİP) çərçivəsində dünya ölkələrində əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatları dərc edilir. Bu hesabatların ilk nəşrində "Hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır” fikri öz ifadəsini tapmışdır.

Davamlı inkişafa nail olmaq üçün Prezidentin 11 fevral 2004-cü il tarixli 24 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”və bu proqramdan irəli gələn məqsədlərə nail olmaq üçün ikinci "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ı qəbul edilmişdir.

Əhalinin rifahının yüksəldilməsi, iqtisadi və sosial sahələrdə müsbət meyllərin davam etdirilməsi məqsədi ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın (YADİDP) icrasına başlanmışdır. Əgər 2003-cü ildə ölkədə yoxsulluq səviyyəsi 44,7% idisə, bu göstərici 2009-cu ildə 10,9%, 2015-ci ildə isə 6% olmuşdur.

Məlumdur ki, yoxsulluğu yaradan əsas amillərdən biri işsizlikdir. Əmək qabiliyyətli insanların işlə təmin olunması üçün 2007-ci ildən "Azərbaycan Respublikasında məşğulluq strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" icra edilir. Proqramda əmək bazarının strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi, məşğulluq sahəsində qanunvericilik bazasının dövrün tələblərinə uyğun yaradılması nəzərdə tutulmuşdur.

**“Multikulturualizmin insan inkişafı ilə dialektik əlaqəsi: hədəflər və resurslar”** adlı üçüncü yarımfəsildə multikulturalizmdən sivilizasiyalararası dialoqa təkan verən, ayrı-seçkiliyi pisləyən mədəni müxtəlifliyə malik xalqların sülh və əmin-amanlıq şəraitində birgəyaşayışını təmin edən önəmli mədəniyyət fenomenlərindən biri kimi bəhs edilmişdir.

Azərbaycan cəmiyyətində multikulturalizm həyat tərzinin ayrılmaz hissəsi, demokratik proseslərin tərkib hissəsi və dövlət siyasətidir. Azərbaycan vətəndaşı, onun təhlükəsizliyi rifahı dövlət siyasətinin prioritet istiqamətidir. Multikulturalizm insan inkişafı amili ilə dialketik vəhdət

təşkil edir. Dövlət siyasəti insan amilinə hesablandığı üçün o, insanın gələcək inkişafı üçün ən məqbul variantdır.

XX əsrin son onilliyindən etibarən dünyanın bir çox ölkələrində müşahidə olunan və son zamanlar artan iqtisadi, sosial, siyasi və ekoloji qeyri-sabitlik bir çox problemlərin, o cümlədən hərbi münaqişələrin artmasına səbəb olmuşdur. Bu amillər inkişafın planlaşdırılması və idarə edilməsi prosesində davamlı inkişaf prinsiplərinə riayət olunmaması ilə bağlıdır.

Bu yarımfəsildə insan potensialının formalaşmasında xarici amillərin və sosial mühitin roluna diqqət yetirilmişdir.

Insan inkişafının yeni paradiqması "həyat səviyyəsi" anlayışından "həyat keyfiyyəti" anlayışına keçidi zəruri edir. Yalnız həyat keyfiyyətini yüksəltmək, insanın şəxsi keyfiyyətləri ilə bağlı tələb və şərtləri dəyişməklə ölkələrin sosial-iqtisadi inkişafının birbaşa asılı olduğu insan potensialının keyfiyyətini artırmaq mümkündür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, inkişafın başlıca resursu insan kapitalı, istehsalın aparıcı stimullaşdırıcı amili isə biliklərdir. 2013-cü ilin aprelində Bakıda keçirilən Davos Dünya İqtisadi Forumundakı yekun nitqində dövlət başçısı insan potensialının əhəmiyyətini xüsusi vurğulamışdır: "Biz bilirik ki, təbii sərvətlər əbədi deyil və zaman keçdikcə tükənəcək. Bu səbəbdən də qara qızılı insan kapitalına çevirmək sadəcə şüar deyil. Bu, reallıqdır[1].

Tarixi təcrübə göstərir ki, ölkəmizdə heç vaxt dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmamışdır. Bunun nəticəsidir ki, son illər multikulturalizmlə bağlı ictimai fikirdə müxtəlif yanaşmalar meydana gəlmişdir. Bəzi Avropa dövlət liderlərin hesab edir ki, multikulturalizm iflasa uğrayıb, onun gələcəyi yoxdur. İllham Əliyev isə hesab edir ki, multikulturalizmin bu günü və gələcəyi vardır. Multikulturalizm meyllərini gücləndirmək üçün hamı çalışmalıdır. Bakı Beynəlxalq Humanitar Forumunun məqsədlərindən biri də budur. Multikulturalizmin alternativi yoxdur, o, gələcək inkişaf üçün ən məqbul variantdır, çünki onun alternativi özünü təcriddir.

İlham Əliyevin multikulturalizm konsepsiyasında maraqlı məqamlardan biri siyasətçilərin məsuliyyəti məsələsidir. O haqlı olaraq göstərir ki, dünyada narahatlıq doğuran proseslər siyasətçilərin məsuliyyətsizliyindən irəli gəlir. Bəzi siyasətçilərin təxribat xarakterli

[1] İlham Əliyevin yekun nitqi. Davos Dünya İqtisadi Forumu. B., aprel, 2013

bəyanatları intellektual səviyyəsi olmayan insanları aqressiv hərəkətlərə təhrik edir. Digər tərəfdən siyasətçilərin reallıqla səsləşməyən vədləri, populist çıxışları və obyektiv iqtisadi imkanlara əsaslanmayan sosial təşəbbüsləri cəmiyyət həyatında haqlı narazılığa səbəb olur.

İlham Əliyevin multikulturalizm konsepsiyasının mühüm məziyyəti budur ki, o, əsas diqqəti insan amilinə verir və bunu hər bir dövlət üçün vacib yanaşma hesab edir. İnsanın azadlığı, təhlükəsizliyi, sağlamlığı, işlə təmin edilməsi, rahat yaşaması dövlətin başlıca qayğısı olmalıdır. Təbii ki, insan azadlıqlarının olmadığı bir dövlətdə multikulturalizm ideyalarının nəinki həyata keçirilməsi qeyri-mümkündür, hətta cəmiyyətdə konfliktli hallar labüddür.

Azərbaycanda multikultural cəmiyyətin formalaşmasında dövlətin yeritdiyi siyasət böyük əhəmiyyət kəsb edir. 28 fevral 2014-cü ildə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edilmişdir. 15 may 2014-cü ildə İlham Əliyev Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında sərəncam imzalamış, 2016-cı ildə - "Multikulturalizm ili"ndə bu məsələ ilə bağlı yeni qurumların yaradılması nəzərdə tutulmuşdur. Bu, Azərbaycanda multikulturalizm ənənələrinin inkişafı və möhkəmləndirilməsi üçün zəruri siyasi və sosiomədəni şəraitin olmasından xəbər verir. Ölkəmizdə müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin təmsilçilərinin sərbəst fəaliyyəti və öz mədəni dəyərlərini inkişaf etdirməsi üçün hər cür imkan vardır.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqata yekun vurulmuş, mədəniyyətlər və sivilizasiyalararası dialoqda insan potensialından istifadə etmək və onu inkişaf etdirmək məqsədilə nəzəri və praktik əhəmiyyət kəsb edən tövsiyələr və təkliflər irəli sürülmüşdür.

*Müəllif belə qənaətə gəlmişdir ki, müasir dünyanın ziddiyyətləri lokal mədəniyyətlərin özünüidentifikasiyası prosesinin insan şüurunda əksi, qlobal böhranlardan çıxmaq üçün mənəvi islahatlar yolu ilə yeni dəyərlər sistemi yaratmaq, müasir sivilizasiyanı qoruyub saxlamaq üçün yeganə çıxış yolu alternativi olmayan dialoqdur.*

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. "Dissident folklorşünaslar". Monoqrafiya. Bakı, 2008. 168 səh.
2. İnformasiya təminatı səmərəli dövlət idarəçiliyinin zəminidir // "Səmərəli dövlət idarəçiliyi: zamanın çağırışları" adlı beynəlxalq konfransın materialları, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, 2011. səh. 383-387.
3. Mədəniyyətlərarası dialoq və davamlı inkişaf problemləri // Proceedings of the "Man and Biosphere" "(MaB, UNESKO) Azerbaijan National Committee, National commission of the Republic of Azerbaijan for Unesco, 8-ci buraxılış, Bakı, 2012. səh.205- 211.
4. Mədəniyyətlərarası dialoq mühitinin formalaşmasında Heydər Əliyevin rolu // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, elmi-nəzəri jurnal, №2(42), Bakı, 2013. səh.173-179.
5. Актуальные вопросы экзистенции сквозь призму самоидентификации индивида // Науковий вісник Гілея, Українська Академія Наук, 68 (№1), Київ, 2013. səh.346-350.
6. İnsan potensialının inkişaf resursları və Azərbaycan gerçəkliyi // Proceedings of the "Man and Biosphere" "(MaB, UNESKO) Azerbaijan National Committee, National commission of the Republic of Azerbaijan for Unesco, 9-cu buraxılış, Bakı, 2013/2014. səh.140- 148.
7. Самоактуализация и развитие человеческого потенциала // Науковий вісник Гілея, Українська Академія Наук, 72 (№5), Київ, 2013. səh.797-800.
8. Dialoq mədəniyyətdə özünüidentifikasiya kimi // Geostrategiya, aylıq ictimai-siyasi, elmi-populyar jurnal, №4 (22), Bakı, 2014. səh. 52-56.
9. Диалог культур и рост человеческого потенциала в оптике современного интегрализма // Актуальные проблемы гуманитарных и естественных наук, журнал научных публикаций, №03 (62), Москва, 2014. səh.271-276.
10. İnsan potensialının inkişaf resursları və Azərbaycan gerçəkliyi // "Heydər Əliyev Azərbaycanın milli dövlətçilik siyasətinin banisidir" mövzusunda doktorantların elmi konfransının materialları, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, 2014. səh.72-84.

11. Mədəniyyət, sivilizasiya və insanın sosiomədəni inkişafının variativliyi // Geostrategiya, aylıq ictimai-siyasi, elmi-populyar jurnal, №06(24), Bakı, 2014. səh. 18-24.

12. Евразийство как «альтернативный» проект глобализации // Научный журнал «Культура народов Причерноморья», Киев, №277, 2014. səh.96-99.

13. Globalization and process of human development // İNTED 2014, Madrid, Spain, səh.53-54.

14. Development of human potential as a main point for public administration // Materials of the Baku International Humanitarian Forum, 2-3 october 2014, Baku, səh.115-119.

15. Человеческий потенциал как основа идеологии развития. Монография. «Aspoliqraf", Баку, 2014. 181 səh.

16. Dialoqluq mədəniyyətlərin və sivilizasiyaların mahiyyət xüsusiyyəti kimi // Gənc alimlərin əsərləri, №10, Bakı, 2014. səh.223-230.

17. Development resources of human potential // The International Journal of Human Resources Management, Volume 26 (İssue 22), 2015. səh.194-206.

18. Human potential of communities and social entrepreneurship as a factor of sustainable innovative development in Azerbaijan // Multidisciplinary Academic Conference on Economics, Management and Marketing, Czech Republic, Prague, MAC-EMM 2015. səh.23-26.

19. Qlobal mədəniyyət və sivilizasiyanın yeni səviyyəsi: insan inkişafı ölçülərində // Sivilizasiya, elmi-nəzəri jurnal, №1, Bakı, 2015. səh. 145-157.

20. Transition from economic growth to human development as a current prospect of public administration, International Congress of International Institute of Administrative Scienses, Rio de Janeiro, Brazil, 2015. səh.112-123.

21. Üçüncü sektorun potensialı və Azərbaycan Respublikasının davamlı inkişafı // Proceedings of the "Man and Biosphere" "(MaB, UNESKO) Azerbaijan National Committee, National commission of the Republic of Azerbaijan for Unesco, 10-cu buraxılış, Bakı, 2015. səh.81- 98.

22. Multikultural dialoq, tolerantlıq və insan inkişafı // Sivilizasiya, elmi-nəzəri jurnal, №4, Bakı, 2015. səh.15-24.

23. Развитие человеческого потенциала Азербайджанской Республики в условиях глобализации // «Regional İdarəetmə: innovativ

yanaşmalar və perspektiv imkanlar" mövzusunda Respublika elmi-praktiki konfransın materialları, Bakı, 2015. səh. 44-50.

24. Human potential of communities and social entrepreneurship as a factor of sustainable innovative development in Azerbaijan // Journal of Education and Human Development, Volume IV, İssue 1, march 2015. səh. 45-51.

25. Azərbaycan Respublikasında davamlı insan inkişafı mexanizmləri // Gənc alimlərin əsərləri, №12, Bakı, 2015. səh. 205-214.

26. Human development of the Azerbaijan Republic in the context of Globalization // Human Organization Journal of the Society for Applied Anthropology, Vol.74 (S) WIN. 2015. səh.147-161.

27. Azərbaycanda davamlı inkişafın təmin olunmasında insan potensialının rolu: müqayisəli təhlil // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, №43, Bakı, 2016. səh. 116-126.

28. İnsan kapitalından insan potensialına // "Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə", elmi-nəzəri jurnal, №2 (54) Bakı, 2016. səh. 207-217.

29. Davamlı inkişafın təmin olunmasında insan kapitalı // Geostrategiya, aylıq ictimai-siyasi, elmi-populyar jurnal, №2(32) 2016. səh. 69-73.

30. Alterqlobalizm və sivilizasiya identikliyi // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, №44, Bakı, 2016. səh. 311-321.

31. Sosial dövlət və Azərbaycanın sosial siyasət modeli // Proceedings of the "Man and Biosphere" "(MaB, UNESKO) Azerbaijan National Committee, National commission of the Republic of Azerbaijan for Unesco, 11-cu buraxılış, Bakı, 2016. səh.39- 50.

32. Dövlət strukturlarında insan potensialının idarə edilməsi. Dərs vəsaiti. "Təhsil" nəşriyyatı, Bakı 2016. 222 səh.

33. Azərbaycan Respublikasında insan potensialının formalaşdırılması davamlı inkişaf modelinin əsası kimi // "Azərbaycan Respublikasının innovativ tərəqqisi və davamlı inkişaf hədəfləri" mövzusunda elmi praktik konfrans, TODAEİ, Ankara, iyun 2016 (çapdadır).

34. Mədəniyyətlər və sivilizasiyaların dialoqu: tarixi proses və Azərbaycanın təcrübəsi. Monoqrafiya. "Elm və Təhsil", Bakı, 2016. 420 səh.

35. İnsan potensialının milli kapitala transformasiyası müstəqil Azərbaycanda dövlət idarəçiliyinin prioriteti kimi // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə, elmi-nəzəri jurnal, №4 (56) Bakı, 2016. səh.145-150.

36. Çok Kültürlü Diyaloq, Hoşgörü Ve İnsan gelişimi // Uluslararası Türk Dünyası Eğitim Bilimler ve Sosyal Bilimler Kongresi (Hoca Ahmet Yasevi Yılı Anısına). Antalya, Türkiyə Cümhuriyyəti, 2016, səh.942-948.

37. Qloballaşma şəraitində insan potensialının inkişafı kulturoloji problem kimi // Gənc alimlərin əsərləri, №12 (2016) (capdadır)

38. Davamlı inkişaf problemləri mədəniyyətlərarası dialoq şəraitində // “Beynəlxalq hüquq və inteqrasiya prosesləri” jurnalı, №1(2016) (çapdadır)

39. Davamlı inkişaf naminə təhsil və məlumatlandırma // V Bakı Beynəlxalq Humanitar Forumun materialları, 29-30 sentyabr. Bakı, 2016. (çapdadır)

40. İnsan kapitalından insan potensialına. Monoqrafiya. “Elm və Təhsil” nəşriyyatı, Bakı, 2017. 190 səh.

**Зияфат Зия кызы Габибова**

## Диалог между культурами и цивилизациями в контексте развития человеческого потенциала

### Резюме

Диссертация состоит из введения, четырех глав (тринадцати параграфов), заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность проблемы, уделяется внимание таким вопросам, как степень разработанности темы, объект и предмет исследования, цели и задачи, теоретико-методологические основания, структура работы.

В первой главе - **«Диалог как процесс взаимодействия и взаимовлияния культур и цивилизаций»** раскрываются вопросы общения в культуре посредством диалога, реализация здесь прогрессивного начала, диалог как средство выявления, изучения и усвоения других культур, как возможность преодоления напряженности между государством и этническими группами. Были рассмотрены, наряду с преградами на пути диалога, факторы, способствующие становлению диалога, вопросы преодоления кризиса самоидентификации современной культуры. В данной главе раскрыты принципы диалогических отношений, вариативность социокультурного развития культуры, цивилизации и человека.

Во второй главе - **«Роль глобальных вызовов в развитии человеческого потенциала»** понятие человеческого потенциала комментируется как общечеловеческая проблема, уделено внимание понятию индекса человеческого развития, который является показателем уровня развития человека, а также идентичности цивилизации и антиглобализму, анализирован новый уровень развития культуры и цивилизации в контексте человеческого развития.

В третьей главе - **«Социокультурная стратегия развития культур и цивилизаций как предмет диалога»** уделено внимание конфликту и диалогу  культур, роли проблемы «Запад-Восток» в диалоге цивилизаций, определена роль мультикультурализма в

диалоге цивилизаций и культур, а «новый гуманизм» истолкован как основа мировоззрения культур и цивилизаций.

В четвертой главе - **«Азербайджан в системе межцивилизационного диалога»**, рассматриваются вопросы места и роли Азербайджана в межцивилизационном диалоге «Восток-Запад», исследованию развития человеческого потенциала как приоритетного фактора, анализировано диалектическое единство человеческого развития с мультикультурализмом в Азербайджане, определены здесь цели и ресурсы, а также определена азербайджанская модель межцивилизационного диалога.

В заключении диссертации подводятся итоги, формулируются теоретические и практические рекомендации и предложения по использованию и развитию человеческого потенциала в диалоге культур и цивилизаций.

*Автор приходит к выводу, что единственным безальтернативным путем для создания новой ценностной системы через духовные реформы и разрешение противоречий современного мира, сохранения современной цивилизации является диалог.*

**Ziyafat Ziya Habibova**

## The intercultural dialogueand dialogue among civilizations in the context of human development

### Summary

Thesis work consists of introduction, four chapters each of which is 13 paragraphs, conclusion and a literature review.

In the introduction the practical relevance of the theme is analyzed, special attention was paid on the thematic elaboration, research object and subject. Dissertation states the aims and objectives, fundamental theoretical and methodological principles, scientific innovation, theoretical and practical importance and the structureof the work.

İn the first chapter **"The Dialogue of Cultures and Civilizations as a Process of interaction and influence"** the intercultural communication and dialogue processes,implementation of cultural achievements, detection of other cultures and the means of understanding and mastering it, possibility to overcome the tension between governments and ethnic groups themes have been discussed. A particular attention has been paid on the factors that hinder the formation of culture as well as features that are important in the formation of a culture of dialogue, the role of dialogue in overcoming the crisis of modern cultural identity is emphasized. This chapter discusses the principles of dialogic relations between cultures, the culture itself, civilization and the variability of socio-cultural development of human.

İn the second chapter **"The role of global challenges in the develop of human potential"** the development of human potential has been interpreted, main attention was paid on anti-global and civilizational identity and on the human development index that is an indicator of the level of human development, a new level of culture and civilization have been reviewed in the context of human development.

In the third chapter **“The subject of dialogue as a socio-cultural development strategy of cultures and civilizations”** attention was paid on the clash of civilizations and cultural dialogue and "East-West" problem in the dialogue of civilizations, the role of multiculturalism in the intercultural dialogue and dialogue among civilizations was defined, the concept of

"new humanism" has been interpreted as the basis of cultural and civilizational outlook.

The fourth chapter, **"Azerbaijan -in the system of dialogue among civilizations"**, defines the role and place of Azerbaijan in the "East-West" dialogue among civilizations, a priority attention is paid on the development of human potential, the dialectical relationship between multiculturalism and human development in Azerbaijan were analyzed, aims, resources and the "Azerbaijani model" of dialogue among civilizations are determined.

The conclusion of a dissertation research paper summarizes the findings, inpurpose to use the human potential and human resources in the intercultural dialogue and dialogue among civilizations the important theoretical and practical recommendations and suggestions were put forward.

*The researcher concluded that the, contradictions of the modern world, local cultures of human consciousness, negative self-identification process, with the global crisis to get out of the way of moral reform to create new values, the only way to preserve modern civilization dialogue has no alternative.*

Ecoprint nəşriyyatı